## Vladimir Putin: Məhəmməd peyğəmbəri təhqir etmək yaradıcılıq azadlığı deyil



**Məhəmməd peyğəmbəri təhqir etmək yaradıcılıq azadlığı deyil.**

Bunu Rusiya Prezidenti Vladimir Putin böyük mətbuat konfransı zamanı söyləyib.

O deyib ki, Məhəmməd peyğəmbərin təhqir edilməsi, yaxud Hitlerin şəklinin "Ölməz alay" saytında yerləşdirilməsi dini azadlığın pozulması və müsəlmanların müqəddəs hisslərinə toxunmaqdır. Bu cür hərəkətlər, məsələn, Fransadakı kimi, daha kəskin ekstremist cinayətlərə yol açır.



## Bakıda tələbə ürəktutmadan öldü

**Bakıda universitet tələbəsi vəfat edib.**

Bakı Avrasiya Universitetinin Filologiya fakültəsinin IV kurs tələbəsi Rüstəm İlqar oğlu Rüstəmov dünyasını dəyişib.

*Onun ürəktutmasından vəfat etdiyi deyilir.*



# Dilənən uşaqlar...

### Onları uzun müddət sığınacaqda saxlamaq olmur, qaçıb yenə küçəyə qayıdırlar

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova uşaqların məcburi dilləndirilməsi problemindən danışıb və bu istiqamətdə iş aparıldığını deyib.**

KİV-ə açıqlamasında komitə sədri deyib ki, qarşıda bizi ailə strategiyası ilə bağlı böyük bir sənədin qəbulu gözləyir. Sosial Tədqiqatlar Mərkəzinin "Sosial-psixoloji təhlil"i olmadan vəziyyəti doğru-düzgün dərk edib, təhlil edib, çıxış yolları barədə cəmiyyətin müxtəlif təbəqələrinin fikrini almadan bir sənədi işləmək mümkün deyil. Bu heç məqsədəuyğun da deyil.

(səh.4)

❒ № 236 (5518), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 dekabr 2021-ci il (cümə)



## Prezidentin yubileyidir

**Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin doğum günüdür.**

Dövlət başçısının 60 yaşı tamam olur.

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olub. Orta təhsilini 1967-1977-ci illərdə Bakı şəhərində alan İlham Əliyev 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ - MQİMO) daxil olub, ali təhsilini müvəffəqiyyətlə başa vuraraq elmi fəaliyyətini institutun aspiranturasında davam etdirib. 1985-ci ildə dissertasiya müdafiə edən İlham Əliyev tarix elmləri namizədi alimlik dərəcəsi alıb və 1990-cı ilədək MDBƏİ-də müəllim işləyib. 1994-2003-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti vəzifəsində çalışıb.

*(Davamı səh.2)*

## 2022-ci il üçün yaşayış minimumu təsdiqləndi



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında" qanunu təsdiq edib.**

Qanuna əsasən, 2022-ci il üçün yaşayış minimumu ölkə üzrə 210 manat, əmək qabiliyyətli əhali üçün 220 manat, pensiyaçılar üçün 176 manat, uşaqlar üçün 193 manat məbləğində müəyyən edilib.

Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

# Azərbaycan Fransaya etiraz etdi

### Prezidentliyə namizəd Xankəndiyə qanunsuz səfər etdiyinə görə "qara siyahı"ya salınıb





**Fransa prezidentliyinə namizəd, Paris İle-de-Frans bölgəsinin rəhbəri Valeri Pekress Qarabağa qanunsuz səfər edib. Pekress Xankəndidə "yerli siyasətçilərlə" tanış olub. Səfər Ermənistanda olan əksər fransız mediası, o cümlədən "France TV" tərəfindən işıqlandırılıb.**

Azərbaycan hökumətinin Qarabağa hətta erməni siyasətçilərin səfərlərinə sərt reaksiya verdiyi halda, Rusiya sülhməramlılarının fransız siyasətçini Xankəndiyə buraxmaları açıq təxribat sayılır. Qeyd edək ki, Pekressin Ermənistana səfərinin rəsmi proqramında Qarabağa getmək tutulmayıb. Fransa nəşri "Le Fiqaro" yazıb ki, Valeri Pekress Ermənistana üç günlük səfərin sonunda separatçı Araik Arutyunyanla görüşərək "Artsaxa" dəstəyini nümayiş etdirmək istəyib. Məlum olub ki, xanım namizəd Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərdə heç bir icazə və qanuni əsas olmadan rahat şəkildə dolaşıb.

(səh.3)



## Paşinyan ilk dəfə doğru yola çıxıb

### Regional əməkdaşlığın real müstəviyə keçməsi revanşist qüvvələri təşvişə salıb

**Ermənistan parlamentinin "Hayastan" və "Şərəfim var" müxalifət fraksiyaları hakimiyyətin Baş nazir Nikol Paşinyanla qapalı görüş keçirməsinə dair təklifinə rədd cavabı verib.**

Görüşdə Qarabağdakı vəziyyət müzakirə olunmalı idi. İki müxalifət fraksiyası Paşinyanla görüşün qapalı formatda keçirilməsini məqsədəuyğun hesab etməyib.

(səh.3)

# Hulusi Akar verdiyi sözü tutdu

### Türk nazir Vətən müharibəsi şəhidi Valeh Məmiyevin ailə üzvləri ilə görüşüb

**Türkiyənin milli müdafiə naziri Hulusi Akar Vətən müharibəsinin şəhidi baş leytenant Valeh Məmiyevin ailəsinin üzvləri ilə görüşüb.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlikdə keçirilən görüşdə şəhidin atası İsbat Məmiyev, anası İlhamə Məmiyeva, qardaşı Vüsal Məmiyev və qardaşı oğlu Sabir Məmiyev iştirak edib.

Bundan başqa, tədbirə Türkiyədə təhsilini davam edən Vətən müharibəsi şəhidlərinin övladlarından Anar İbrahimli, Şəbnəm Qubadova, habelə Vətən müharibəsi qazisi Ayxan Mövsümov və Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov qatılıb.

(səh.2)



## "TURKOVAC"la bağlı Azərbaycan və Türkiyə rəsmiləri bir araya gələcək





**"TURKOVAC" peyvəndi ilə bağlı Azərbaycan və Türkiyə rəsmiləri bir araya gələcək.**

Bunu Real TV-nin Türkiyə bürosuna Türkiyənin Səhiyyə İnstitunun Direktoru Erhan Akdoğan bildirib.

*Qeyd edək ki, Türkiyədə Peyvənd, Biotexnoloji Məhsulların Araşdırma və İstehsalı Müəssisəsinin tikintisinə başlanılıb. 50 min kvadrat metrlik ərazidə inşa edilən Peyvənd, Biotexnoloji Məhsulların Araşdırma və İstehsalı Müəssisəsi paytaxt Ankarada yerləşəcək. Nəhəng müəssisə 2022-ci ildə təhvil veriləcək. Türkiyə Səhiyyə İnstitunun direktoru ələvə edib ki, müəssisənin Azərbaycanla əməkdaşlığı da planlar arasındadır.*

## Yoluxma sayı azaldı

### Vafat edinlər artıb 19 nəfər oldu





**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 854 yeni yoluxma faktı qeydə alınıb, 1 569 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 19 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 613 059 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 591 724 nəfər müalicə olunaraq sağalıb, 8 257 nəfər vəfat edib, aktiv xəstə sayı 13 078 nəfərdir.*



## Şoyqu insidentləri ört-basdır etməyə çalışır

### Halbuki, rus sülhməramlıları olmasaydı, ermənilər Qarabağı çoxdan tərk etmişdilər

(səh.3)

## Bir az da fəal olmalıyıq

### "Google maps" Azərbaycanın tarixi adlarını özünə qaytarmalıdır



(səh.4)

# Azərbaycan Prezidentinə dünyanın dörd bir yanından təbriklər gəlir

**Bu gün Silahlı Qüvvələrinin Ali Baş Komandanı, prezident İlham Əliyevin doğum günüdür. Dünyanın bir çox ölklərinin rəhbərləri ölkə prezidentini təbrik edib, ona ən xoş arzularını çatdırıblar.**



Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Prezident İlham Əliyevi doğum günü münasibəti ilə təbrik edib.

Təbrikdə deyilir:

"Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizi təbrik edir, möhkəm cansağlığı, Azərbaycan Respublikasının firavanlığı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Sizinlə ümumi dəyərlər və qarşılıqlı hörmət ruhunda əməkdaşlığa böyük əhəmiyyət verirəm. Həm dövlətlərarası, həm şəxsi münasibətlərimizin yaxınlığı Qoşulmama Hərəkatının 60 illik yubileyinin qeyd olunması ilə bağlı birgə təşkilatçılıqda bir daha təsdiqləndi. Mənə çox xoşdur ki, Siz çıxışınızda beynəlxalq hüquq çərçivəsində ölkələrin ərazi bütövlüyü və suverenliyinə dair məsələləri xüsusi qeyd etdiniz. Bu mənada mən Kosovonun birtərəfli qaydada elan etdiyi müstəqilliyi tanımamaqla bağlı qəti mövqeyinizə, həmçinin beynəlxalq təşkilatlarda bu məsələ ilə əlaqədar Serbiyanı dəstəklədiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Serbiya da öz növbəsində suverenlik və ərazi bütövlüyünə hörmət prinsipinə sadiqdir və Qarabağ probleminin tənzimlənməsini alqışlayır.

Hörmətli cənab Prezident, Azərbaycanla strateji tərəfdaşlıq Serbiya üçün böyük əhəmiyyət kəsb edir. Coğrafi məsafəyə baxmayaraq, bizim ölkələrimizi və xalqlarımızı ənənəvi dostluq və tərəfdaşlığın bütün sahələrdə möhkəmlənməsi üçün böyük potensial birləşdirir. Serbiya əlaqələrin daha da möhkəmlənməsinə qəti şəkildə sadiqdir. Ona görə də ümid edirəm ki, Azərbaycan ümumi məqsədlərin reallaşmasında gələcəkdə də bizim etibarlı tərəfdaşımız olaraq qalacaqdır.

Zati-aliləri, yeni görüşlər ümidi ilə xahiş edirəm ən yüksək ehtiramımı qəbul edəsiniz".

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Məktubda deyilir:

"Hörmətli İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Siz bu yubiley gününü haqlı olaraq öz xalqınızın tanınmış, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, ölkənin sosial-iqtisadi inkişafında mühüm nailiyyətlərə və beynəlxalq arenada nüfuzunun artırılmasına tarixi töhfə vermiş lideri kimi qarşılayırsınız.

Əminəm ki, Azərbaycan Sizin strateji kursunuzla bundan sonra da dayanıqlı inkişaf yolu ilə irəliləyəcək, güclü və firavanlaşan dövlət quruculuğu işində yeni zirvələr fəth edəcək.

Qazaxıstanda Sizin Qazaxıstan-Azərbaycan münasibətlərinin dərinləşməsinə verdiyiniz şəxsi töhfənizi yüksək qiymətləndirir və iki ölkə arasında çoxillik dostluq, qarşılıqlı dəstək və strateji tərəfdaşlıq tellərinin bundan sonra da möhkəmlənməsinə böyük əhəmiyyət verirlər.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə məsul dövləti fəaliyyətinizdə böyük nailiyyətlər, qardaş Azərbaycan xalqına isə rifah və tərəqqi arzulayıram".

İordaniyanın Kralı II Abdullah Prezident İlham Əliyevi doğum günü münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:

"Hörmətli cənab Prezident, doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı Zati-alinizə çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Xahiş edirəm, Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzularımı qəbul edəsiniz".

Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Si Cinpin bildirib ki, Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verir, ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin yüksəlməsi üçün birgə səy göstərməyə hazırdır.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Ukraynanın sabiq Prezidenti Leonid Kuçma Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Bundan başqa, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Tatarıstan Respublikasının Prezidenti, "Rusiya-İslam dünyası" Strateji Baxış Qrupunun sədri Rüstəm Minnixanov, Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Təbrik məktubu ünvanlayanlar sırasında MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi Sergey Lebedev, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norov, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov da var.

## Prezidentin yubileyidir

(Əvvəli səh.1-də)

**1995-ci və 2000-ci illərdə Milli Məclisə üzv seçilən İlham Əliyev 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin rəhbəri olub.**

AŞPA-da siyasi fəaliyyəti çərçivəsində 2003-cü ilin yanvar ayında qurumun sədr müavini və Büro üzvü seçilib. 2003-cü ildə Baş Nazir vəzifəsinə təyin edilməsi ilə əlaqədar İlham Əliyevin deputat səlahiyyətlərinə xitam verilib.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib, oktyabrın 31-də vəzifəsinin icrasına başlayıb. 2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88 faizindən çoxunun səsini qazanan İlham Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

2013-cü il oktyabrın 9-da keçirilən prezident seçkilərində növbəti dəfə qələbə qazanıb.

2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində İlham Əliyev 86,03 faiz səs toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Prezident İlham Əliyev hakim Yeni Azərbaycan Partiyasının sədridir. İlham Əliyev, həmçinin, 1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilib.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

Evlidir, üç övladı var.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün ərzində Azərbaycan ərazilərini erməni işğalçılarından təmizləyib, ölkənin ərazi bütövlüyünü təmin edib. 30 ildən sonra işğaldan azad edilmiş torpaqlarımızda indi üçrəngli bayrağımız dalğalanır.

***"Şərq" qəzetinin kollektivi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevi doğum günü münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, fəaliyyətində uğurlar arzulayır!***



## Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmə nağdsız qaydada veriləcək

**"Hazırda çox geniş 3-cü sosial islahat həyata keçirilir. Ölkə Prezidentinin bugünkü fərmanı da bu islahat çərçivəsində verilib".**

Bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib.

Onun sözlərinə görə, 2018-ci ildə şəhidlər üçün 11 min manatlıq birdəfəlik ödəmə təyin edilib, 13 min şəhidin 18 min ailə üzvünə 130 milyon manata yaxın vəsait köçürülüb. Bugünkü Fərmanın icrası ilə əlaqədar 2021-ci dövlət büdcəsindən 50 milyon manat ayrılacaq. Bu səbəbdən Komissiya da yaradılıb, bu Komissiya birdəfəlik ödəmə ilə bağlı mexanizm hazırlayacaq. 2 ay ərzində birdəfəlik ödəmənin verilməsi qaydası hazır olacaq".

Nazir müavini deyib ki, hazırda fərmanın icrası ilə bağlı tədbirlərin icrasına başlanılır: "Birdəfəlik ödəmə nağdsız qaydada veriləcək. Siyahılar hazır olandan sonra dürüstləşdiriləcək, hüququ olan şəxslərə və ya vəfat edənlərin ailələrinə birdəfəlik ödənəcək. Proses qaydalarla müəyyən olunacaq. Vərəsələr müəyyən ediləcək, hər bir vərəsənin payına uyğun bölünərək məbləğ ödənəcək. Fərmanla bizə 2 ay vaxt verilib, təkliflər hazırlanıb, Komissiyada müzakirə olunandan sonra ödəmə ilə bağlı qaydaların təsdiq olunması üçün Nazirlər Kabinetinə müraciət olunacaq".

## Azərbaycanda xarici diplomların tanınması qaydası dəyişir



**"Gələn ildən xarici diplomların tanınmasında yeniliklər tətbiq olunacaq".**

APA-nın məlumatına görə, bunu Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Eldar Orucov ilin yekunlarına dair mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, bir çox ölkələrdə xüsusilə də tibb sahəsində tədris normativi Azərbaycanda nəzərdə tutulan tədris normativindən daha aşağıdır. Bu zaman onların bilikləri yetərli olmur: "Yeni qaydalar layihəsində qismən tanınma anlayışı olacaq və tələbələrin əldə etdikləri biliklər tərəfimizdən tanınacaq, onlara hüquq veriləcək ki, Azərbaycanda mövcud olan digər ali təhsil müəssisələrində çatışmayan kreditləri əldə edə və ixtisasını tamamlaya bilsinlər. Proseslə bağlı uzun müddətdir ki, müzakirələr aparılıb. Hesab edirəm ki, növbəti ilin əvvəlində layihə təsdiq olunacaq".

# Hulusi Akar verdiyi sözü tutdu

## Türk nazir Vətən müharibəsi şəhidi Valeh Məmiyevin ailə üzvləri ilə görüşüb

**Türkiyənin milli müdafiə naziri Hulusi Akar Vətən müharibəsinin şəhidi baş leytenant Valeh Məmiyevin ailəsinin üzvləri ilə görüşüb.**

**Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.**



Nazirlikdə keçirilən görüşdə şəhidin atası İsbat Məmiyev, anası İlhamə Məmiyeva, qardaşı Vüsal Məmiyev və qardaşı oğlu Sabir Məmiyev iştirak edib.

Bundan başqa, tədbirə Türkiyədə təhsilini davam edən Vətən müharibəsi şəhidlərinin övladlarından Anar İbrahimli, Şəbnəm Qubadova, habelə Vətən müharibəsi qazisi Ayxan Mövsümov və Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov qatılıb.

**H.Akar başda Valeh Məmiyev olmaqla Vətən müharibəsi şəhidlərinə Allahdan rəhmət, qazilərinə isə şəfa diləyib:**

"İki il öncə bir təlimdə qarşılaşdığımızda Valehə "Bura təlim yeridir. Hünər 30 il işğal altındakı əraziləri azad etməkdir" dedim. Valeh də mənə Azərbaycanın öz ərazilərini azad etmək üçün şərəf sözü verdi. Orada biz tarixə şahid olduq. Şəhidlərimizin, qazilərimizin vətən, millət, bayraq uğrunda göstərdikləri qəhrəmanlıq və fədakarlıqlar əsla unudulmayacaq. Onların xatirələrini əsla unutdurmayacağıq".

**Nazir azərbaycanlı tələbələrə də xitab edərək onları daha çox çalışmağa, sahib olduqları biliklərlə gələcəyi qurmağa çağırıb**: "Ölkənizə qayıdanda Türkiyənin könüllü elçiləri olacaqsınız, iki ölkə arasındakı dostluq və qardaşlığın daha da inkişaf etməsi üçün töfhə verəcəksiniz".

Görüşün sonunda azərbaycanlı tələbələr Azərbaycan bayrağını müdafiə nazirinə, o isə, öz növbəsində, Vətən müharibəsi şəhidi baş leytenant Valeh Memiyevlə çəkilmiş şəkli şəhidin ailəsinə hədiyyə edib.

Xatırladaq ki, V.Məmiyev ötən il avqustun 13-də Azərbaycanda təşkil edilən Azərbaycan-Türkiyə quru qoşunları və hərbi hava qüvvələrinin birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində uğurla iştirak edən hərbçilərdən biri olub.

Təlimlərdən sonra H.Akar Məmiyevə mükafat təqdim edib, şəkil çəkdirib və söhbət edib. Türkiyəli nazir hərbçilərə üz tutaraq bunu söyləyib: "Təlimlərdə gücünüzü və peşəkarlığınızı göstərməyiniz çox yaxşıdır. Ancaq əsas vəzifəniz 30 ildir işğal altındakı torpaqlarınızı azad etməkdir. Buradakı uğurlarınızı döyüş meydanında da sübut etməlisiniz".

V.Məmiyevin cavabı isə belə olub: "Biz Ali Baş Komandanın əmrini gözləyirik. Əmr gələn kimi ərazilərimizi işğaldan azad edəcəyik və sizin istəyinizi yerinə yetirəcəyik". Qubadlı uğrunda döyüşdə yaralanan hərbçi yerləşdirildiyi xəstəxanada məqsədinə çatdığını söyləyib: "Mən artıq məqsədimə çatmışam. Mən qardaş Türkiyənin müdafiə naziri Akara verdiyim sözü tutdum. Vətən sağ olsun". Bir müddət sonra yaralı hərbçi şəhid olub.

# Rusiya bu dəfə Sankt-Peterburqda vasitəçilik edəcək

## MDB dövlət başçılarının sammiti çərçivəsində Azərbaycan-Ermənistan liderlərinin görüşü gözlənilir

**Dekabrın 28-də Rusiyanın Sankt-Peterburq şəhərində MDB-yə üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşü keçiriləcək. Bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib və zirvə görüşünə hazırlıq getdiyini bildirib. Ehtimal edilir ki, Peterburqda Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin qeyri-rəsmi növbəti görüşü keçirilə bilər.**



Bəzi iddialara əsasən, Peterburq görüşündə tərəflər arasında razılaşmaların yerinə yetirilməsi və sərhədlərin delimitasiyası müzakirə ediləcək. Həmçinin, Putin Qərbə mesaj verəcək və s. Amma görüşdə əlavə anlaşma olacağı, ciddi müzakirələrin aparılacağı istisna edilir.

Siyasi şərhçi Tural İsmayılov da hesab edir ki, il yekunlaşana kimi Azərbaycan-Ermənistan rəhbərlərinin növbəti görüşü mümkündür. Ekspert dekabr ayı ərzində Azərbaycan Prezidenti ilə Ermənistan baş naziri arasında üçüncü təmasın olacağını istisna etmir: "Rusiya Prezidenti Vladimir Putin Soçidə saziş imzalanarkən ilin sonuna, yaxud gələn ilin əvvəlinədək sərhədlərin demarkasiya və delimitasiyası ilə bağlı işlərin görüləcəyini vurğulamışdı.

Sərhədlərin müəyyənləşməsi və dəhlizlə bağlı məqamlar fonunda Rusiyanın vasitəçiliyi ilə Sankt-Peterburqda görüş keçirilə bilər. Nəzərə alaq ki, söhbət MBD dövlət başçılarının sammitindən gedir. Deməli, sammit çərçivəsində üzv dövlətlərin ikitərəfli görüşləri də təbii və mümkündür. Ümumən, MDB üzvlərinə Azərbaycan-Ermənistan arasındakı danışıqların nəticəsi ilə bağlı məlumat verilə bilər. Yaxın dönəmdə hansı işlərin görüləcəyi və konkret planlarla bağlı detallar məlum olar. Bu baxımdan düşünürəm ki, MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşü xüsusi əhəmiyyətə malikdir. Zirvə görüşü təkcə Azərbaycan-Ermənistan danışıqları ilə bağlı deyil, bütövlükdə quruma üzv ölkələr adına yeni siyasi-iqtisadi layihələrin imzalanması ilə yadda qalacaq".

**İsmayıl Qocayev**

# Azərbaycan Fransaya etiraz etdi

## Prezidentliyə namizəd Xankəndiyə qanunsuz səfər etdiyinə görə "qara siyahı"ya salınıb

İsmayıl Qocayev



"Ermənipərəstlərin hərəkətləri münaqişəni yenidən alovlandırmaq məqsədi güdür"

**Fransa prezidentliyinə namizəd, Paris İle-de-Frans bölgəsinin rəhbəri Valeri Pekress Qarabağa qanunsuz səfər edib. Pekress Xankəndidə "yerli siyasətçilərlə" tanış olub. Səfər Ermənistanda olan əksər fransız mediası, o cümlədən "France TV" tərəfindən işıqlandırılıb.**

Azərbaycan hökumətinin Qarabağa hətta erməni siyasətçilərin səfərlərinə sərt reaksiya verdiyi halda, Rusiya sülhməramlılarının fransız siyasətçini Xankəndiyə buraxmaları açıq təxribat sayılır. Qeyd edək ki, Pekressin Ermənistana səfərinin rəsmi proqramında Qarabağa getmək tutulmayıb. Fransa nəşri "Le Fiqaro" yazıb ki, Valeri Pekress Ermənistana üç günlük səfərin sonunda separatçı Araik Arutyunyanla görüşərək "Artsaxa" dəstəyini nümayiş etdirmək istəyib. Məlum olub ki, xanım namizəd Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərdə heç bir icazə və qanuni əsas olmadan rahat şəkildə dolaşıb. Qəbiristanlıqlardakı quldur məzarlarını ziyarət edib və qanunsuz rejimin üzvləri ilə təmas qurub. Pekressin qarşıdakı prezident seçkisi ərəfəsində Fransanın müxtəlif bölgələrini dolaşmaq əvəzinə uzaq Ermənistana, oradan isə Xankəndiyə səfəri təəccüb doğurur. Bu cür faktlar Rusiya sülhməramlılarının da etibarsızlığını bir daha ortaya qoyur. Dəfələrlə vurğulanıb ki, Laçın dəhlizi Qarabağa əcnəbilərin qanunsuz səfərləri üçün açılmayıb. Bu kimi səfərlər Azərbaycan-Ermənistan arasında danışıqlar prosesinə mənfi təsir göstərməklə yanaşı, həm də Rusiyanın vasitəçilik missiyasına böyük zərbə vurur. Nəhayət, İrəvan hökuməti də başa düşməlidir ki, müəyyən qüvvələr onlardan öz məqsədləri üçün istifadə edirlər. Qanunsuz səfərdən sonra rəsmi Bakı Fransaya etiraz notası verib. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, bu cür səfərlər Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlməklə ölkənin milli qanunvericiliyinin pozulması halıdır. Məlumat üçün bildirmək istərdik ki, Azərbaycan ərazilərinə qanunsuz səfər edən Fransa vətəndaşlarının adları ölkəmizə girişi arzuolunmaz şəxslər siyahısına daxil edilib".

**Siyasi şərhçi Azər Rəşidoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Pekress qarşıdan gələn prezident seçkilərində Fransadakı erməni lobbisinin dəstəyini qazanmaq üçün bu addımı atıb.** Analitikin sözlərinə görə, Fransa siyasətçiləri hər zaman ölkə daxilində və xarici siyasətdə ermənilərdən istifadə ediblər: "Pekress və prezidentliyə digər namizəd Erik Zimmur eyni yolu gedirlər. Əlbəttə, bu cür addımlar Cənubi Qafqazda revanşizmi gücləndirmək və sülhə qarşı təxribat deməkdir. Pekress, Zimmur və Fransa senatında olan digər ermənipərəstlərin hərəkətləri münaqişəni yenidən alovlandırmaq məqsədi güdür. Onların revanşizmi və separatçılığı dəstəkləməsi ciddi təhlükədir. Pekress prezident seçilərsə, Paris-Bakı münasibətləri necə inkişaf edəcək?! İnanmıram ki, Paris iqtisadi maraqlarını ermənilərə qurban versin. Sadəcə olaraq, erməni lobbisinin əlində oyuncağa çevrilən Pekress kimilər ölkələrinin praqmatik maraqlarını görməzdən gəlirlər. Bunun zərbəsini isə ilk növbədə özləri dadmalı olacaqlar".

**Politoloq vurğulayıb ki, Rusiya sülhməramlılarının Bakının razılığı olmadan Qarabağa xarici vətəndaşları gətirməsi ciddi sual doğurur:** "Rusiya sülhməramlıları Laçın dəhlizində nəyə və kimə nəzarət edirlər? Azərbaycan ərazilərinə kimsə rahat keçəcəksə, deməli, sülhməramlılar üzərlərinə düşən vəzifə və öhdəliklərini icra etmirlər, ya da icra etmək istəmirlər. Rusiya sülhməramlılarının gözü qarşısında Qarabağa silah-sursat daşınır. Bunlara görə Azərbaycan ictimaiyyətində haqlı olaraq belə fikir formalaşır ki, Rusiya sülhməramlıları missiyalarını həyata keçirə bilmirlər. Bu da ruslara olan etimadı heçə endirir. Rusiya sülhməramlıları bəzi hallarda öz mandatlarına uyğun xidmət göstərmirlər. Onların nəzarətində olan ərazilərdən diversantların Azərbaycan postlarına hücum etməsi deyilənlərə sübutdur. Belə davam edərsə, biz sülhməramlıların vaxtından əvvəl bölgəni tərk etməsini tələb edə bilərik".



**ADA Universitetinin İxtisasartırma Proqramları və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) birgə təşkilatçılığı ilə 29 noyabr-17 dekabr tarixlərində keçirilən "New Media" gənc jurnalistlər üçün nəzəri və praktiki biliklər üzrə seminarlar silsiləsi başa çatıb.**

# Sertifikat aldılar

## Gənc jurnalistlər üçün keçirilən seminarlar yekunlaşıb

Bu münasibətlə dekabrın 23-ü ADA Universitetində məzun günü keçirilərək, iştirakçılara sertifikatlar təqdim edilib.

Seminar iştirakçılarını təbrik edən ADA Universitetinin prorektor müavini Aygün Hacıyeva bildirib ki, bu seminarlar İxtisasartırma Proqramları tarixində bir ilkdir. Belə ki, adətən diplomatlar, dövlət qulluqçuları və təcrübəli peşəkarlar üçün proqramlar təqdim edən İxtisasartırma Proqramları ilk dəfədir ki, bilavasitə tələbələr üçün silsilə seminarlar təşkil edərək, onlara sertifikat təqdim edib.

Bildirilib ki, seminarlar 3 həftə ərzində öz sahəsində peşəkarlığı ilə seçilən 18 ekspert tərəfindən tədris edilib. İlk həftə ərzində iştirakçılara müasir media mühiti, jurnalist dəyərləri və bu peşənin etik və peşəkar yanaşmaları, 2-ci həftə ölkəmizin tarixi, geosiyasi mövqeyi və enerji məsələlərini əhatə edən mövzular tədris edilib. Sonuncu həftənin tədris proqramı isə ünsiyyət bacarıqları, protokol və etiket, vaxtın və stresin idarə edilməsi mövzularına həsr edilib.

**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "New Media" proqramının ilk məzunlarına uğurlar diləyib, onlara bacarıqlarını daim inkişaf etdirməyi tövsiyə edib. Qeyd olunub ki, seminar iştirakçıları ilk MEDİA könüllülərindən ibarət gənclərdir.** Ə.İsmayılov əlavə edib ki, "New Media" proqramının təşkilindəki əsas məqsəd qlobal miqyasda baş verən prosesləri lazımi qaydada işıqlandırmağı bacaran gənc və peşəkar jurnalist kadrlar yetişdirməkdir.

Sonra, iştirakçılar tərəfindən hazırlanan "İnformasiya müharibəsinin Ali Baş Komandanı" filmi nümayişi etdirilib. Filmdə iştirakçıların Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 44 günlük müharibə zamanı xarici media nümayəndələrinə verdiyi müsahibələri ilə bağlı müşahidə və təhlilləri əksini tapıb.

*Qeyd edək ki, "Yeni qabiliyyətlər, həmin dəyərlər" başlığı altında keçirilən seminarlar ADA Universitetinin idarəetmə, eləcə də professor-müəllim heyəti, ölkəmizin dövlət qurumlarının yüksəkrütbəli əməkdaşları, o cümlədən beynəlxalq təşkilatların və Azərbaycanda akkreditə olunmuş səfirliklərin ekspertləri tərəfindən tədris edilib. İştirakçıların ölkənin müxtəlif media subyektlərində ilkin mərhələdə təcrübə proqramına, daha sonra isə məşğulluğa başlayacaqları gözlənilir.*

# İranla siyasi məsələlərdə fikir ayrılıqları qalır

## Ancaq iqtisadi əlaqələrin şaxələndirilməsi yaxşı haldır, bu, siyasi problemləri də arxa plana atır



ehlibeythaber.net

"Abdullahianın səfərində digər məqsəd bu idi ki, İran yenidən ali dini rəhbərin Azərbaycan üzrə nümayəndəsini ölkəmizə göndərsin"

**Prezident İlham Əliyev dekabrın 22-də İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahianın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlət başçısı Aşqabadda İran Prezidenti Seyid İbrahim Rəisi ilə görüşünü xatırladıb. Vurğulayıb ki, görüş zamanı gələcək əməkdaşlıqla bağlı bir çox məsələlər müzakirə edilib.**

Ölkə rəhbəri Azərbaycan-İran dostluq əlaqələrinin bir daha təsdiqləndiyini bildirib. İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahian da Aşqabad görüşünə toxunaraq bu görüşü ölkələr arasında əlaqələrdə dönüş nöqtəsi kimi dəyərləndirib. Söhbət zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulanıb. Görüşdə ikitərəfli əməkdaşlığımızın gündəliyinin geniş olduğu bildirilib və yaxşı nəticələrin əldə ediləcəyinə ümidvarlıq ifadə olunub. İranın xarici işlər naziri Azərbaycan XİN başçısı Ceyhun Bayramovla da görüşüb. Azərbaycandakı təmasları dəyərləndirən Abdullahian bildirib ki, görüşlərdə əhəmiyyətli razılaşmalar əldə olunub. Onun sözlərinə görə, bu razılaşmalar iki ölkə arasında əlaqələri gücləndirəcək, yaxın gələcəkdə öz səmərəsini verəcək: "Biz Azərbaycanı ən yaxın və yaxşı qonşulardan biri hesab edirik. Prezidentimizin əsas prioriteti qonşu ölkələrlə münasibətlərdir ki, Azərbaycanın da burada xüsusi yeri var. Biz xalqlarımızın rifahı üçün addımlar atacağıq". Nazir vurğulayıb ki, İran-Azərbaycan münasibətlərinin inkişafı üçün təşəbbüslər var: "Biz iki ölkənin rəsmi şəxsləri arasında iqtisadi, ticarət və mədəni sahələr üzrə qarşılıqlı səfərlərin artmasının şahidi olacağıq".

Ekspertlərə görə, İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahianın Azərbaycana səfəri məhsuldar olub. İranlı qonaq özü də səfərdən məmnun qalıb.

**Cənub qonşumuzla əlaqələri "Şərq"ə dəyərləndirən siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, Bakı-Tehran münasibətlərində iqtisadi prioritetlər ortaq maraqlar yaradır. Ekspertin fikrincə, verilən bəyanatların ümumi məzmunundan çıxan nəticə budur:** "Siyasi məsələlərdə fikir ayrılıqları qalır. Məsələn, Hüseyn Əmir Abdullahian belə bir fikir səsləndirdi: "Regionda olan problemlərə üçüncü ölkələr müdaxilə etməməlidir". Əlbəttə, iqtisadi əlaqələrin şaxələndirilməsi yaxşı haldır, bu, siyasi problemləri də arxa plana atır. Əslində İranda prezidentlik institutunun üzərinə qoyulan öhdəliklərin ana xəttini xarici ölkələrlə iqtisadi münasibətlərin tənzimlənməsi təşkil edir. Bu mənada Abdullahianın "İran Prezidenti İbrahim Rəisinin prioritetlərində Azərbaycanla münasibətlər xüsusi yer tutur" deməsi daha çox iqtisadi prioritetlərin elanıdır. Abdullahianın səfərində digər məqsəd bu idi ki, İran yenidən ali dini rəhbərin Azərbaycan üzrə nümayəndəsini ölkəmizə göndərsin. Şübhəsiz, İran tərəfi qapalı görüşlərdə bu məsələni qaldırıb. Azərbaycanın bu təklifi qəbul edib-etmədiyini deyə bilmərik, amma qəbul edərsə, bunun üçün şərtlər ortaya qoya bilər. Deyə bilər ki, ali dini liderin nümayəndəsinin fəaliyyət dairəsi və funksiyası məhdud çərçivədə olsun. Azərbaycan dövlətinə qarşı ideoloji mühərrikə çevrilməsin. Ümumən, iqtisadi maraqlar iki ölkənin münasibətləri üçün stimullaşdırıcı amildir. Bu, çox yaxşıdır. Bu maraqların Zəngəzur dəhlizinə, Qarabağ və Şərqi Zəngəzura daşınması üçün təşəbbüslər də alqışlanmalıdır.

Siyasi məsələyə gəlincə, görünür ki, hələ gələcəkdə başqa gərginliklər olacaq, amma yoluna qoyulacaq".

**İsmayıl Qocayev**

"Azərbaycan və Türkiyə ilə normal əlaqələrin bərpası erməni müxalifəti üçün böyük zərbədir və onların hakimiyyət iddiasının puç olması deməkdir"



# Paşinyan ilk dəfə doğru yola çıxıb

## Regional əməkdaşlığın real müstəviyə keçməsi revanşist qüvvələri təşvişə salıb

**Ermənistan parlamentinin "Hayastan" və "Şərəfim var" müxalifət fraksiyaları hakimiyyətin Baş nazir Nikol Paşinyanla qapalı görüş keçirməsinə dair təklifinə rədd cavabı verib. Görüşdə Qarabağdakı vəziyyət müzakirə olunmalı idi. İki müxalifət fraksiyası Paşinyanla görüşün qapalı formatda keçirilməsini məqsədəuyğun hesab etməyib.**

Onların fikrincə, Ermənistan hakimiyyətinin şübhəli danışıqlar aparması dəfələrlə təsdiqlənib. Müxalif qüvvələr hesab edirlər ki, danışıqlar prosesi nə hərbi, nə də dövlət sirridir. Ona görə də xalqla bağlı məsələlərin müzakirə olunacağı görüş istənilən halda qapalı formatda keçirilməməlidir. Müxalifət fraksiyaları bəyan ediblər ki, Paşinyanla yalnız açıq formatda, həm də bərabər şərtlər altında görüşə bilərlər. Ancaq hakimiyyət buna razılıq verməz.

**Nikol Paşinyana qarşı daxili təzyiqləri "Şərq"ə təhlil edən politoloq Samir Hümbətov deyib ki, erməni müxalifətinin əlinə əməlli-başlı "kozur" keçib. Siyasi şərhçiyə görə, Baş nazir Nikol Paşinyan Türkiyə və Azərbaycanla münasibətlərin yaxşılaşdırılması istiqamətində komanda şəklində fəaliyyət göstərir:** "Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan İrəvanın Bakı və Ankaradan gələn nümayəndələri qəbul etməyə hazır olduğunu bildirib. Tərəflər arasında ciddi proseslərə start verildiyi açıq-aşkardır. Lakin görünən odur ki, regional əməkdaşlığın real müstəviyə keçməsi ənənəvi erməni müxalifətində təşviş yaradıb. Ermənistandakı müxalifətin əsas qüvvəsi "Qarabağ klanı"ndan ibarətdir. Bu klan isə birbaşa Rusiyanın tabeçiliyindədir. Azərbaycan və Türkiyə ilə normal əlaqələrin bərpası revanşist erməni müxalifəti üçün böyük zərbədir və onların hakimiyyət iddiasının puç olması deməkdir. İqtisadi maraqlarına baxmayaraq, Rusiya da siyasi baxımdan Türkiyə və Azərbaycanın Ermənistanla əməkdaşlığını, İrəvanı nəzarət altına almalarını qətiyyən arzulamır. Amma geriyə yol yoxdur. Ermənistan Türkiyə və Azərbaycanla danışıqlar masasına oturarsa, Ankara və Bakının şərtlərini qəbul edərsə, nəqliyyat kommunikasiyaları açılarsa, tədricən soyuqluq aradan qalxar və münasibətlər normallaşar".

**S.Hümbətov qeyd edib ki, Ermənistanda yaxın aylarda referendum keçiriləcək. Ekspertin sözlərinə görə, "Qarabağ klanı" qorxur ki, hökumət referendum vasitəsilə Türkiyəyə qarşı əsassız ərazi və saxta "soyqırım" iddialarından əl çəkər:** "Məlumdur ki, Türkiyəyə ərazi iddiaları Ermənistanın konstitusiyasında əks olunub. Referendumla buna son qoyula və ən əsası Qarabağ məsələsi birdəfəlik bağlana bilər. Erməni müxalifəti bunu "milli təhlükəsizliyə" zərbə hesab edir. O səbəbdən Paşinyanın birgə müzakirə təkliflərinə israrla qarşı çıxırlar və hökuməti "satqınlıqda", "xəyanətdə" ittiham edirlər. Paşinyan isə ilk növbədə ölkə iqtisadiyyatını blokadadan çıxartmağa çalışır. Bunun yolu isə qonşu dövlətlərlə əlaqələri nisbətən də olsa normallaşdırmaqdan keçir. İrəvan hökumətinin bu yöndə davamlı addımlar atacağı şübhəsizdir. İnanmıram ki, Paşinyan müxalifətin təhdidləri ilə geri addım atsın. Artıq Türkiyə və Ermənistan tərəfləri müzakirələr üçün qarşılıqlı xüsusi nümayəndələr təşkil ediblər. Yaxın günlərdə danışıqların yeni predmetinin ortaya çıxması daha realdır".

**İsmayıl Qocayev**

# Qazaxıstan parlamenti ölüm hökmünü ləğv edib



**Qazaxıstan parlamentinin yuxarı palatası - Senat ölüm hökmünün ləğvi ilə bağlı qanunvericiliyə əlavə və dəyişikliklər haqqında qanunu qəbul edib.**

Dəyişikliklərdə ölüm cəzasının Cinayət Məcəlləsinin bütün maddələrindən çıxarılması təklif olunur.

Qanunvericiliyə edilən düzəlişlər BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktının ölüm cəzasının ləğvinə yönəlmiş ikinci fakültativ protokoluna uyğun hazırlanıb. Qazaxıstan bu protokolu 2021-ci ilin yanvarında ratifikasiya edib. Cinayət Məcəlləsində ən ağır cəza ömürlük həbs olacaq.

Senat tərəfindən qəbul edildikdən sonra ölüm hökmünün ləğvi ilə bağlı qanun Qazaxıstan Prezidentinin imzalamasından sonra qüvvəyə minəcək.

*Qeyd edək ki, hazırda respublikada ölüm hökmünə moratorium qoyulub. 2003-cü il dekabrın 17-də Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev ölüm hökmünün ləğvi ilə bağlı qərarın qəbuluna qədər cəzaların icrasına qeyri-*müəyyən moratoriumun tətbiq olunduğunu elan edib. Fərman 2004-cü il yanvarın 1-dən qüvvəyə minib.



# Səbailin polis rəisi işində nöqsanlara yol verib

## Nazir onu vəzifəsindən azad edib

**Səbail rayon Dövlət Yol Polisi şöbəsinin rəisi vəzifəsindən azad edilib.**

Bu barədə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Nazirin əmri ilə Səbail Rayon Dövlət Yol Polisi Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Mehman Fətəliyev işində yol verdiyi nöqsanlara görə vəzifəsindən çıxarılıb.

M.Fətəliyev sərəncama götürülüb.

# Bir az da fəal olmalıyıq

## "Google maps" Azərbaycanın tarixi adlarını özünə qaytarmalıdır



### "Məsələnin şirkət qarşısında qaldırılması çox müsbət addımdır"

**Azərbaycan "Google maps" tətbiqində Qarabağ bölgəsinin adlarının rəsmi və tarixi adlarla göstərilməsi üçün diplomatik kanallarla "Google" şirkəti qarşısında məsələ qaldırıb.** Eyni zamanda Azərbaycana məxsus yerlərin hələ də saxta adlarla erməni dilində göstərilməsi yanlışlığının aradan qaldırılması ilə bağlı müraciət edib. Ölkəmizin müvafiq ərazilərinin rəsmi coğrafi adlarının siyahısı qarşı tərəfə təqdim edilib. Məktubda 4589 yaşayış məntəqəsinin Azərbaycan, ingilis və rus dillərində rəsmi qaydada standartlaşdırılmış və təsdiq edilmiş adlarını əks etdirən siyahı, habelə Ermənistan-Azərbaycan münaqişəsinin təsirinə məruz qalmış ərazilərimizdə yerləşən və təhrif edildiyi müəyyən edilmiş 125 coğrafi obyektin adı göstərilib. Vurğulanıb ki, BMT-nin "Coğrafi adların Standartlaşdırılması üzrə Konfransları" çərçivəsində qəbul edilmiş qətnamələrə görə hər hansı bir dövlətin səlahiyyətli dövlət qurumu tərəfindən standartlaşdırılmış coğrafi adlara dəyişiklik edilməsi yolverilməzdir. Bu kimi dəyişikliklər BMT tərəfindən tanına bilməz. Bir məqama diqqət çəkək ki, "Google maps" platforması istifadəçilərin fərdi müraciətləri və yanaşmaları prinsipi əsasında fəaliyyət göstərir. Bu baxımdan vətəndaşlarımızın, habelə qeyri-hökumət qurumlarının mövzu ilə bağll fəal şəkildə fikirlərini şirkətə yazmaları çox önəmlidir.

**Millət vəkili Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında deyib ki, hazırda "Google" axtarış sistemi ciddi mənbə kimi çıxış etməklə mühüm informasiya mübadiləsi platforması sayılır.** Deputatın sözlərinə görə, "Google" bir növ virtual kitab rolu oynayır, maarifləndirmə vasitəsi kimi şıxış edir: "Ona görə də bu mənbədə nəyin necə təqdim edilməsi məlumatlandırma baxımından strateji əhəmiyyət daşıyır. Təəssüf ki, 30 illik erməni işğalı dövrü torpaqlarımızla bərabər həm də yer adlarımızın, toponimlərimizin, etnonim və hidronimlərimizin, yəni bizə aid olan coğrafiyada bütün maddi-mədəni irsin də işğal altına düşməsinə səbəb olub. Hazırda "Google" sistemində bu adların yenidən özümüzə qaytarılması həm milli yaddaşımız, həm tarixi ədalət, həm də qlobal məkana obyektiv informasiya ötürmək baxımından olduqca aktualdır. O səbəbdən "Google maps" tətbiqində Qarabağ bölgəsinin adlarının rəsmi və tarixi adlarla göstərilməsi məsələsinin şirkət qarşısında qaldırılması çox müsbət addımdır. Məktubda göstərilən 4589 yaşayış məntəqəsi və 125 coğrafi adın bərpa edilərək öz adları ilə göstərilməsi təqdirəlayiqdir və alqışlanmalıdır".

**İsmayıl Qocayev**

# Fransada türk-müsəlman seçicilərinin sayı milyonlarladır

## "Səs axtaran fransız siyasətçiləri bu tərəfə yönəltmək üçün Türkiyə və Azərbaycan birgə çalışmalıdır"

**"Fransada 500 minə yaxın erməni əsilli vətəndaş yaşayır. Onlardan isə sadəcə 200-250 minə yaxınının səsvermə hüququ var. 70 milyon əhalisi olan ölkədə 200-300 min səsə görə Fransa siyasətçilərinin özlərini odaközə vurması, absurd bəyanatlar verməsi həm ikrah, həm də təəssüf doğurur".**




Bu barədə ReAL Partiyasının sədr müavini Natiq Cəfərli deyib. Partiya təmsilçisi bildirib ki, Fransa kimi demokratik ənənələr yaradan, dünyada bu ənənələrin yayılmasında önəmli rolu olan bir ölkədə erməni seçicilərinin nazı ilə bu qədər oynanılması ikrah doğurur. Amma təəssüf doğuran məqamlar daha çoxdur: "Fransada türk-müsəlman seçicilərinin sayı milyonlarladır. Doğru taktiki və strateji addımlarla həmin seçicilərin önəmini vurğulamaqla, Fransa siyasətçilərinin səs "ovunu" bu tərəfə yönəltməklə vəziyyəti dəyişmək olar. Türkiyə və Azərbaycan birlikdə Avropada, ABŞ-da lobbi strategiyası hazırlamalıdır. Bu, qısa, orta və uzunmüddətli addımlar alqoritmindən ibarət olmalıdır. Bu alqoritmlərin doğru çalışması üçün isə ilk növbədə həm Azərbaycanda, həm də Türkiyədə demokratik təsisatların, seçki institutunun önəmi, yeri və çəkisi artırılmalıdır ki, deməyə sözümüz, göstərməyə örnəyimiz olsun. Bundan sonra media ilə, siyasətçilərlə, siyasi partiyalarla, fikir adamları ilə iş qrafiki və prinsipləri müəyyənləşdirilməlidir. Başqa yol yoxdur".

**İsmayıl**

# Ermənistan konstitusiyasının müəyyən bəndlərini dəyişməlidir

## Əks təqdirdə, normallaşma prosesi və hərtərəfli sülh çətin və kövrək olacaq



**İsmayıl Qocayev**

**Ermənistan yeni konstitusiya qəbul etməyə hazırlaşır. Baş nazir Nikol Paşinyanın konstitusiya islahatları ilə bağlı qərarına əsasən yaradılacaq Şura bu istiqamətdə işləyəcək.**

Ekspertlərin fikrincə, yeni konstitusiya Paşinyana hakimiyyətini möhkəmləndirmək üçün lazımdır. Hərçənd bu qərar 44 günlük müharibədən sonra bölgədə yaranmış vəziyyət, Azərbaycanla mümkün sülh sazişinin imzalanması, Türkiyə ilə münasibətlərin normallaşması gözləntiləri fonunda da diqqət çəkir. **Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə vurğulayıb ki, bu prosesdə Ermənistanın Müstəqillik Bəyannaməsi əsas maneələrdən biridir. Ekspertin sözlərinə görə, 12 bəndlik bəyannamə qondarma "Dağlıq Qarabağ şurasının" 1989-cu ildə qəbul etdiyi qondarma "miatsum" qərarına əsaslanır:** "Bəyannamənin 11-ci bəndində deyilir ki, "Ermənistan respublikası 1915-ci ildə Osmanlı Türkiyəsi və Qərbi Ermənistanda erməni "soyqırımının" beynəlxalq səviyyədə tanınmasını dəstəkləyir". Qondarma "miatsum" ideyası Azərbaycana qarşı, 11-ci bənd isə Türkiyəyə qarşı ərazi iddiasının, eləcə də qondarma "soyqırımı" iddiasının irəli sürülməsidir. Və Ermənistan Konstitusiyasında bəyannamənin yerinə yetirilməsi əsas vəzifələrdən biri kimi yer alır. Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasını istəyən Ermənistan bəyannamədən imtina etməli, ən vacibi isə konstitusiyasını dəyişdirərək, "bəyannamənin yerinə yetirilməsi vəzifəsini" çıxarmalıdır. İstisna deyil ki, Ankara-İrəvan danışıqlarında, eləcə də Bakı və İrəvanın yekun sülh müzakirələrində bu məsələlər müzakirə ediləcək. O da istisna deyil ki, Paşinyanın konstitusiya islahatları qərarının səbəblərindən biri qonşu olmaq istədiyi ölkələrə - Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının hüquqi baxımdan aradan qaldırılmasıdır. Əks təqdirdə, normallaşma prosesi və hərtərəfli sülh çətin və kövrək olacaq".

# Dilənən uşaqlar...

## Onları uzun müddət sığınacaqda saxlamaq olmur, qaçıb yenə küçəyə qayıdırlar



**Mələhət Rzayeva**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova uşaqların məcburi diləndirilməsi problemindən danışıb və bu istiqamətdə iş aparıldığını deyib. KİV-ə açıqlamasında komitə sədri deyib ki, qarşıda bizi ailə strategiyası ilə bağlı böyük bir sənədin qəbulu gözləyir.**

Sosial Tədqiqatlar Mərkəzinin "Sosial-psixoloji təhlil"i olmadan vəziyyəti doğru-düzgün dərk edib, təhlil edib, çıxış yolları barədə cəmiyyətin müxtəlif təbəqələrinin fikrini almadan bir sənədi işləmək mümkün deyil. Bu heç məqsədəuyğun da deyil. Aparılan tədqiqatsa gözlənilən nəticələri verib. B.Muradova kimsəsiz olan uşaqların diləndirilməsi məsələsinə münasibət bildirərək deyib ki, bu problem gələcəyimizi təhdid edir: "Böyük insanların əlində azyaşlı uşaqlar pul əldə etmək üçün vasitəyə çevrilir, diləndirilir. Onlar hətta öz ata-anaları tərəfindən də bu işə cəlb olunurlar. Hüquq-mühafizə orqanları tərəfindən diləndirilən uşaqlarla bağlı ciddi mübarizə tədbirləri aparılmalıdır. Uşaq əməyinin hər hansı şəkildə istismarı qəbuledilməzdir. Bunadək də gördüyümüz işləri davam etdirməliyik. Biz həmin uşaqların ailələrinin, yaxın adamlarının tapılması prosesinə qoşuluruq. Əgər bu şəxslər yoxdursa, onların dövlət müəssisələrinə yerləşdirilməsi məsələsi ilə məşğul oluruq. Həmin uşaqların təhsili və psixoloji reabilitasiyası işini təşkil edirik".



B.Muradova təəssüflə bildirib ki, diləndirilən belə uşaqlar aşkarlandıqda, harasa yerləşdirildikdən sonra yenidən imkan tapıb həmin yeri tərk edir, qaçır və seçimi küçə həyatı olur.

Həqiqətən də tədbirlər aparılmasına baxmayaraq dilənçi problemi həllini tapmır. Hüquq-mühafizə orqanları profilaktik tədbirlər keçirir, nəticədə dilənçilər küçələrdən, metrostansiyalardan uzaqlaşır, amma bir müddət sonra yenə öz peşələrinə davam edirlər. Bu günlərdə profilaktik tədbirlər Gəncə şəhərində həyata keçirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan verilən məlumata görə, Gəncə Şəhər Baş Polis İdarəsinin, Nizami Rayon Polis İdarəsinin əməkdaşları şəhər ərazisində tüfeyli həyat tərzi keçirən və dilənçiliklə məşğul olaraq vətəndaşların haqlı narazılığına səbəb olan şəxslərlə bağlı profilaktik tədbir keçirib. Tədbir zamanı ümumilikdə 40 nəfər saxlanılaraq Polis İdarəsinə gətirilib. Onlarla profilaktik söhbətlər aparılıb, 31 nəfər barəsində isə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib. Daha sonra saxlanılan şəxslər qeydiyyatda olduqları şəhər və rayonlara göndərilib.

Amma hamımız bilirik ki, bu şəxslər bir müddət sonra yenə geri qayıdacaq və dilənməkdə davam edəcəklər. Bu şəxslərlə, xüsusilə də uşaqları diləndirənlərlə ciddi mübarizə aparmaq mümkün deyilmi?

### "Bir qadın qucağında körpəsi dilənirsə, ya da ahıl insan küçədən keçənlərə əl açırsa, onların harada, hansı vəziyyətdə yaşadıqları mütləq araşdırılmalıdır"

**"Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında qeyd etdi ki, bu uşaqları sığınacaqda uzun müddət saxlamaq olmur:**

- Məsələnin mahiyyətinə baxmalıyıq. Qaraçılar iki cürdür - yerli və gəlmə - roman qaraçıları. Dilənmək bu insanların peşəsidir. Bu, onlarda genetikdir. Bunu hansısa tayfa, xalq haqqında mənfi fikir kimi qəbul etmək lazım deyil. Bütün dünya qaraçıların assimilyasiya olunması üçün proqramlar işləyib hazırlayır, bu insanları cəmiyyətə inteqrasiya etməyə çalışırlar. Lakin alınmır. Çünki bu insanların davranışları, həyat tərzləri fərqlidir. Dilənmək onlar üçün bir ənənədir və bu ənənədən vaz keçmirlər. Assimilyasiyaya tabe olmurlar. Bahar xanımın dediyi həqiqətdir. Dəfələrlə olub ki, dilənən və ya diləndirilən qaraçı uşaqları sığınacağa yerləşdirilib, aylarla orda qalıblar. Sığınacaqda qalmanın da müddəti var. 3 ay, 6 ay, ehtiyac olduqda 1 il də saxlana bilər. Amma onları müddətsiz, davamlı saxlamaq da mümkün deyil. Çünki uşaqların valideynləri var və onlar valideynlik hüququnun pozulduğunu əsas gətirərək uşaqlarının sığınacaqdan çıxarılmasını tələb edirlər. Bir də görürsən bir araba adam gəldi ki, uşağımızı verin! Onu burda saxlamağa ixtiyarınız çatmır. Bu vəziyyətdə müqavimət göstərmək yersizdir. Və uşaqlar bu şəkildə ailələrinə qayıdır, sonra yenə də peşələrinə davam edirlər. Bu insanların əksəriyyətinin şəxsiyyət vəsiqəsi də yoxdur. Vətəndaşlığı da yoxdur. Ümumiyyətlə, qaraçı qrupları ilə işləmək çox çətindir.

**M.Zeynalova bildirib ki, dilənən və ya uşaqlarını diləndirən Azərbaycan vətəndaşları ilə iş aparmaq mümkündür:**

- Bu qəbildən olan dilənçilərlə iş apara bilirik. Hüquq-mühafizə orqanları tərəfindən sığınacağa təhvil verilən uşaqlar təhsilə cəlb edilir, internat məktəblərə yerləşdirilir. Qaraçı olmayanların assimilyasiyası mümkündür. Onlar inteqrasiyaya tabe olur, dəyişə bilirlər. Bunu da deyim ki, inteqrasiya proqramları azdır, zəifdir, amma bununla belə yenə də onlarla iş aparılır. Araşdırma aparılır, bəzən məlum olur ki, ailənin sosial problemləri var, gəlirləri sıfırdır. Bu halda valideynin işlə təminatı həyata keçirilir, uşaqlar da dövlət müəssisəsinə yerləşdirilir, əgər valideynin razılığı varsa. Sosial problem həll olunduqdan sonra valideynlər uşaqlarını dövlət müəssisəsindən çıxarır, özü baxır, təmin edir. Ümumilikdə, hesab edirəm ki, həssas qruplara yönəlik daha geniş sosial proqramlar icra olunmalıdır. Bir qadın qucağında körpəsi dilənirsə, ya da ahıl insan küçədən keçənlərə əl açırsa, onların harada, hansı vəziyyətdə yaşadıqları mütləq araşdırılmalıdır. Ola bilər ki, bu insanları da kimlərsə, hətta öz doğmaları dilənməyə məcbur etsin. Bu isə artıq cinayət əməlidir. Qarşısı alınmalıdır.

# Şoyqu insidentləri ört-basdır etməyə çalışır

## Halbuki, rus sülhməramlıları olmasaydı, ermənilər Qarabağı çoxdan tərk etmişdilər



**Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Qarabağda müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin bölgədə sülhün qorunub saxlanmasında təminatçı olduğunu bildirib.**

O qeyd edib ki, Rusiya sülhməramlıları Qarabağda və ona bitişik rayonlarda dinc həyatın bərqərar olması üçün şərait yaradır. Həmçinin Azərbaycanla Ermənistan arasında münasibətlərin bərpasına kömək edir.

Şoyqu vurğulayıb ki, sülhməramlıların təhkim olduğu bölgədə bir dənə də olsun ciddi insident baş verməyib.

Rus sülhməramlılarının mandatı sülhün qorunmasını nəzərdə tutsa da, onların fəaliyyəti humanitar problemlərdən tutmuş infrastruktur layihələrədək geniş sahəni əhatə edir.

Rəsmi Bakı Rusiya sülhməramlılarının fəaliyyətindən narazı olduğunu bir neçə dəfə nəzərə çatdırıb.

**Şoyqunun bəyanatındakı gizli kodları açan sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Şərq"ə bildirib ki, Rusiyanın müdafiə nazirinin açıqlaması yuxarı dairələrin sifarişidir:** "Rusiya Azərbaycan-Ermənistan sərhədində baş verən bütün insidentləri ört-basdır etməyə çalışır. Halbuki, bu hadisələrə Rusiya sülhməramlıları nəzarət etməlidir. Həmçinin bölgədəki erməni separatçılarının tərksilah edilməsi mühüm əhəmiyyət kəsb edir. Lakin onlar vəzifələrini icra etmək əvəzinə separatçıları qorumağa çalışırlar. Hətta Rusiya sülhməramlıları Qarabağda yaşamayan erməniləri zorla avtobuslara doldurub Xankəndiyə daşımaqdan da çəkinmirlər.

Əgər Rusiya hərbçiləri burada olmasaydı, ermənilər Qarabağı çoxdan tərk etmişdilər.

Bu yaxınlarda Fransada prezidentliyə namizəd Valeri Pekress Qarabağa qanunsuz səfər etdi.

Sülhməramlılar bu qadının öz ölkəsində erməni təbliğatı apardığını, Azərbaycanı təhdid etdiyini bilsələr də, onun səfərinin qarşısını almadılar. Rusiya hərbçilərinin özbaşınalığına son qoyulmalıdır. S.Şoyqu sülhməramlıların Qarabağda kök salmasına "don geydirir". Azərbaycan isə onlara güzəştə getməyəcək. Dekabrın 28-də Sankt-Peterburqda Müstəqil Dövlətlər Birliyinin görüşü keçiriləcək. Mühüm görüşdən öncə S.Şoyqunun belə ifadə işlətməsi qəbulolunmazdır".

**Xanlar Əlibəy**

# Ermənistanın nümayəndə heyəti Ankara və Bakıya səfərə hazırdır

## Ekspertlər hesab edir ki, birbaşa dialoq imkanlarından istifadə daha faydalıdır

**Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib ki, erməni tərəfi regional məsələləri müzakirə etmək üçün həm Bakıya, həm də Ankaraya səfər etməyə hazırdır.**

Armen Qriqoryan eyni zamanda Azərbaycan və Türkiyə nümayəndə heyətlərini İrəvanda qəbul etməyə hazır olduqlarını da səsləndirib. O qeyd edib ki, Ermənistan tərəfi regional məsələlər üzrə işləməyə və müzakirə təşkil etməyə hazırdır. Armen Qriqoryanın bu açıqlaması nəyə hesablanıb?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu vurğulayıb ki, Moskvadan sonra "3+3" platformasının növbəti görüşü Ankarada keçiriləcək. Analitikin sözlərinə görə, Ermənistan təmsilçisi "altılıq" platformasında iştirak üçün Ankaraya gedəcək:** "Ermənistan hökuməti Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan vasitəsilə indidən erməni cəmiyyətinə mesaj yollayır ki, Ankaraya gedəcəklər. Digər yandan, Armen Qriqoryanın mesajı həm də beynəlxalq aləmədir. Ermənilər dövləti özü haqda müsbət imic formalaşdırmağa çalışırlar. Demək istəyirlər ki, müharibədə Azərbaycana məğlub olmalarına və xeyli itki vermələrinə baxmayaraq, qonşuları ilə birbaşa dialoqa hazırdırlar. İstənilən halda əgər İrəvan Bakı ilə birbaşa dialoqa hazır olduğunu nümayiş etdirirsə, bundan faydalanmaq lazımdır. Rusiyanın vasitəçilikdə inhisarçı mövqeyini azaltmaqda fayda var. Ona görə birbaşa dialoq imkanlarından maksimum istifadə etmək lazımdır".

**İsmayıl**



## Türkiyədə bir dollar 10 lirəyədək ucuzlaşdı

Türkiyədə bir ABŞ dolları 10 lirəyədək ucuzlaşıb.

Trend-in məlumatına görə, hazırda birjalarda dollar 10,2 lirə ətrafında alınıb-satılır.

Ötən günlə müqayisədə lirə dollara nisbətdə 15 faizə yaxın bahalaşıb.

Sonuncu dəfə Türkiyədə dollar noyabrın 18-də 10 lirə ətrafında olub.

Xatırladaq ki, son bir neçə həftə ərzində lirə kəskin ucuzlaşmaqda davam edirdi. Ötən həftə bir dollar 18 lirə həddini keçmişdi.

R.T.Ərdoğan öz çıxışında iqtisadi planları açıqladıqdan sonra lirənin qiyməti sabitləşməyə başlamışdı.

## Əhəd Məmmədliyə toy arzuladılar

“Mən qismətə inanan insanam”



**Bir müddət öncə, sabiq deputat, Müsavat Partiyası funksionerlərindən olan İkram İsrafilin qızı Nərmin İsrafil AĞ Partiyanın sədri Tural Abbaslı ilə ailə qurub.**

Sosial şəbəkədə toydan fotolar və videolar paylaşılıb. Təbii ki, məclis bitdikdən sonra, gəlinin əlindəki gülü subaylara dönərək atması ənənə halını alıb. Yayılan videoların birində Nərmin İsrafilin əlindəki gülü yaxınlaşıb AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədliyə verməsi izləyicilər tərəfindən maraqla qarşılanıb.

Bu xoş hadisə ilə bağlı ”Şərq”ə danışan Əhəd Məmmədli bildirib ki, bu, əvvəlcədən planlaşdırılmış hadisə deyildi: ”Kadrda da görünür, mən kənarda dayanmışdım. Nərmin xanım həm qız, həm də oğlan toyunda gülü mənə verdi. Dövlət Baxçalıya sual verirlər, ”Ailə qurmağı düşünmürsüz?”.

O isə belə cavablayır: ”Ölümlə evlilik elə bir şeydir ki, nə vaxt gələcəyini bilmirsən”. Mən də qismətə inanan insanam, qismət ”.

**Aygün Tahir**

## Fransız siyasətçi əndazəni aşdı

Bu addım Azərbaycanın Laçın dəhlizini ciddi nəzarətə götürməsi üçün gözəl səbəbdir





**Fransada prezidentliyə namizəd Valeri Pekress Qarabağa qanunsuz səfər edib. Hadisə ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) bu ölkəyə nota verib. Bəyan olunub ki, V.Pekressin adı arzuolunmaz şəxslər siyahısına daxil edilib.**

Nazirlikdən bildirilib ki, prezidentliyə namizəd dekabrın 22-də Azərbaycan Respublikasının Xankəndi şəhərinə qanunsuz səfər edib: ”Seçkiqabağı kampaniya çərçivəsində digər fransız siyasətçilərin müşayiəti ilə həyata keçirilən bu səfər Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlməklə ölkənin milli qanunvericiliyinin pozulması halıdır.

Xarici İşlər Nazirliyi qanunsuz səfərlə bağlı Fransa səfirliyinə qəti etirazını bildirib və Azərbaycan Respublikasının müvafiq qanunlarının tələblərini ciddi şəkildə pozan sözügedən Fransa vətəndaşlarının milli qanunvericiliyimizə uyğun olaraq məsuliyyət daşıdığını xatırladıb.

Fransadan olan bir qrup siyasətçinin bu addımının Azərbaycan-Fransa ikitərəfli əlaqələrinə ziyan vurduğu, eyni zamanda Fransanın regionda nüfuzuna və münaqişənin başa çatmasından sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında oynaya biləcəyi rola ciddi xələl gətirdiyi qarşı tərəfin diqqətinə çatdırılıb”.

**Pekressin qanunsuz səfərinin məqsədini ”Şərq”ə şərh edən Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə qeyd edib ki, bu addım Azərbaycanın Laçın dəhlizini ciddi nəzarətə götürməsi üçün gözəl səbəbdir:** ”Fransız siyasətçi beynəlxalq hüquq normalarını kobud surətdə pozmaqla yanaşı, eyni zamanda faşist simvollarına öz ”hörmətini” nümayiş etdirib. Sözügedən səfər Avropada, xüsusilə Fransada faşizmin və onun simvollarına münasibətdə ciddi cinayət hesab olunmalıdır. Bu məsələ Fransa ictimaiyyətinin də qarşısına fakt kimi qoyulmalıdır. Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdi, yenidən müharibəyə və revanşa çağırışlar Fransa tərəfindən həyata keçirilir. Zənnimcə, yaşananlar xoşagəlməz haldır, onlara baha başa gəlməlidir. Çünki vaxtilə Fransa faşizmdən əziyyət çəkən ölkə olub. Bu istiqamətdə hər hansı addım faşizmə dəstək deməkdir”.

**Aygün Tahir**

# Soyuq münasibət, sərt ritorika dəyişib

**Xəbər verdiyimiz kimi, ötən gün İran xarici işlər naziri ölkəmizə səfər edib. Bağlı qapılar arxasında keçirilən görüşdən sonra Azərbaycan XİN başçısı Ceyhun Bayramov iranlı həmkarı Hüseyn Əmir Abdullahianla birgə mətbuat konfransı keçirib. Müzakirə zamanı C.Bayramov bildirib ki, İran şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki layihələrdə iştirak edə bilər. Görüşdə həmçinin İranın işğaldan azad edilmiş ərazilərə investisiya yatırmaq imkanları ətrafında da fikir mübadiləsi aparılıb.**

Rəsmi Tehranın vaxtilə işğal altında olan Azərbaycan torpaqlarının erməni tapdağından azad edilməsinə qarşı çıxması, hər vəchlə bu prosesin qarşısını almağa çalışması hər kəsə məlumdur. Maraqlıdır, Qarabağın işğaldan azad edilməsinə əngəl törədən cənub qonşumuz indi həmin ərazilərin bərpasına investisiya yatırmaqda niyə bu qədər maraqlıdır?

**İranın sərgilədiyi davranışları ”Şərq”ə şərh edən analitik Turab Rzayev bildirib ki, bütün dünya ölkələrinin iki əsas marağı olur: siyasi və iqtisadi.** Siyasi maraq ölkələrin geopolitik vəziyyəti, indiki və gələcək siyasətdə ətrafda baş verəcək hadisələrin onların ümumi inkişaf strategiyasına, milli təhlükəsizliyinə və s. olan münasibəti ilə ölçülür. İqtisadi maraq isə həmin ölkələrin nə qədər iqtisadi gəlir əldə etməsi, gələcəkdə iqtisadi cəhətdən özünü necə təmin edəcəyi və iqtisadi layihələrdə pay alması ilə bağlıdır: ”İqtisadi güc öz ardınca siyasi qüdrəti gətirir”.

Siyasi şərhçi İranın müharibənin gedişatı dövründəki davranışlarına diqqət çəkib: ”Biz gördük ki, İranın çoxlu narazılığı var. Bunlardan biri də su anbarı ilə bağlı idi. Xatırlayırsınızsa, hətta Araz boyu Horadiz istiqamətində bizim əsgərlərin qarşısını kəsmişdilər ki, guya, bunlar su anbarını müdafiə edirlər. Daha sonra Hadruta İrandan gələn qazla bağlı bəzi xəbərlər eşitdik. Hətta rəsmi Tehranın buna müəyyən investisiya qoyduğu da iddia olunurdu. Bu dönəm rəsmi Tehran ticarətlə bağlı ciddi ticarət istiqamətlərindən birini itirdi. Bütün bunlar yekunda onu çox böyük zərərə məruz qoydu. Münaqişə dövründə İran siyasi cəhətdən də izolyasiya olundu. Hətta Rusiya belə onun Azərbaycana qarşı tezislərini, aqressiyasını dəstəkləmədi”.



***"Rəsmi Tehran Qarabağdakı infrastruktur layihələrə qoşulmaqla müəyyən iqtisadi pay almaq istəyir"***

**T.Rzayev vurğulayıb ki, hazırda rəsmi Tehran çirkli pul, narkotik dövriyyəsindən, qeydiyyatsız ticarətdən, qaz satışı, enerji materialı satışından itirdiyini qazanmağa çalışır:** ”Digər tərəfdən isə yeni yaranmış siyasi vəziyyətdə pozitiv düşünür. Rusiya, Türkiyə, Avropa ölkələrinin gücləndiyini görüb özü də hər hansı şəkildə siyasi cəhətdən itirdiyi nüfuzunu kompensasiya etmək üçün iqtisadi bir mənfəət əldə etməyə çalışır. Bunun ilkin addımını da biz Azərbaycanın İran üzərindən Türkmənistanın qaz almasına razılıq verdiyi anda gördük. Çünki bu qazın tranziti əvəzinə rəsmi Tehran maddi resurs və ya təbii qaz şəklində müəyyən qədər qazanc əldə edir. Sirr deyil ki, İran öz əhalisinə təbii qaz çatdırmaqda əziyyət çəkir. Bu proses onu müəyyən qədər ödənişsiz qazla və ya valyuta ilə təmin etdi”.

**Ekspertin qənaətincə, İranın işğaldan azad edilmiş ərazilərdə müəyyən infrastruktur layihələrində yer alması onun müəyyən iqtisadi pay almaq istədiyini göstərir:** ”Buna görə də Azərbaycanla yaxınlaşmağa, ölkəmizə olan soyuq münasibəti, sərt ritorikanı dəyişməyə ehtiyac duyur. Bu, əslində gözlədiyimiz addım idi. Onsuz da biz bütün ölkələrlə iqtisadi əməkdaşlığa açıq olduğumuzu bəyan etmişik. Avropa İttifaqına da bu barədə təklif etmişik. İşğaldan azad olunmuş ərazilərin yenidənqurmaya ehtiyacı var. Bu ərazilər tamamilə dağıdılıb. Kömək edə bilən, dəstək verə bilən varsa, buyursun. Amma bizimlə şantaj dilində danışan, təzyiq göstərən heç bir dövlətlə iqtisadi layihədə iştirak edə bilmərik”.

**Günəş Mərd**

# Əsl günahkarlar üzə çıxarılıb ifşa olunacaq

“Tərtər işi”nin obyektiv araşdırılacağına ümid böyükdür



***Kimliyindən asılı olmayaraq bu işdə əli olan günahkarların hər biri layiqincə cəzalandırılacaq***

**”Baş Prokurorluğun digər hüquq-mühafizə orqanları, güc strukturları ilə birlikdə ”Tərtər işi” adlandırılan hadisələri yenidən araşdırmağa başlaması bütün hallarda müsbət addımdır”. Bu sözləri ”Şərq”ə Milli Həmrəylik Partiyasının sədri, Qarabağ qazisi Əlisahib Hüseynov deyib. Partiya rəhbəri təkrar araşdırmanın nəticələrinin obyektiv olacağından əminlik ifadə edib:**

”Ortada Prezident İlham Əliyevin siyasi iradəsi var. Cənab Prezidentin bir neçə gün öncə 2017-ci ildə baş vermiş Tərtər hadisələrinin yenidən araşdırılmasına göstəriş verməsi sözügedən araşdırmaların şəffaf və obyektiv aparılacağına zəmanət verir. Son dövrlərdə ictimailəşən faktlar onu göstərir ki, ”Tərtər işi” çərçivəsində həqiqətən də çoxsaylı qanun pozuntularına yol verilib və ağır işgəncələr tətbiq edilib. Məqsəd isə o olub ki, Aprel döyüşlərindən qalib çıxan Silahlı Qüvvələrimizin döyüş ruhu ”5-ci kolon”a bağlı olan şəxslərin əli ilə sarsıdılsın. Qarabağımızı güc yolu ilə qaytarmaq qüdrətimizə inam hissi tamamilə öldürülsün. Ordumuz fədakar və vətənpərvər hərbçilərdən məhrum edilsin. Bax, bu qədər çirkin və məkrli bir niyyətə xidmət edən qüvvələr bu cür dəhşətli cinayətləri törədib, ağır işgəncələrə yol veriblər. İşgəncələrə, həbslərə yol verən qüvvələr nəinki Azərbaycan Ordusuna, eyni zamanda Azərbaycan dövlətçiliyinə zərbə vurmağa cəhd göstəriblər. Bu, dövlətimizə qarşı olduqca məkrli təxribatdır”.

**Ə.Hüseynov qeyd edib ki, təkrar araşdırmanın gedişində bütün bu faktların hamısı üzə çıxarılacaq:** ”Kimliyindən asılı olmayaraq bu işdə əli olan günahkarların hər biri layiqincə cəzalandırılacaq. Heç kimin buna şübhəsi olmasın. Təkrar araşdırmanın aparılması bütün məsələlərə aydınlıq gətirəcək və əsl günahkarlar üzə çıxarılıb ifşa ediləcək. Ordumuzun nüfuzuna xələl gətirmək istəyən, onun döyüş gücünü zəiflətmək məqsədini güdən qara qüvvələr cəzasız qalmayacaq. Heç kim ordumuzun nüfuzuna sarsıdıcı zərbə vurmağa qadir deyil. Buna cəhd göstərən xainlər ədalət qarşısında mütləq cavab verəcəklər. Cənab Prezident də məhz haqq və ədalətin bərqərar olması üçün, ordumuzu içindən sarsıtmaq istəyənlərin tapılıb ifşa edilməsi üçün bu məsələnin daha dərindən araşdırılmasına göstəriş verib. Odur ki, istintaqın nəticələrini gözləməliyik. Yeni istintaq qrupunun yaradılmasının müsbət nəticələrini görəcəyik”.

**İsmayıl Qocayev**

# Qapılar hər kəsə açıqdır

Yeni hərbi təşkilata generallar da qoşulacaq, jurnalistlər də

**Sosial şəbəkədə yeni yaradılan hərbi təşkilatla bağlı status paylaşılıb. Həmin statusda qeyd edilir:**

**”Hərbi ekspertlər və hərb sahəsində fəaliyyət göstərən yazarlar bir araya gələrək təşkilat yaradıblar. Hələ ki təşkilatın adı açıqlanmır. Lakin təşkilatın gələcək üçün uğur qazanmasına inanmıram. Rahatlıqla deyə bilərəm ki, təşkilat hansısa rüşvətxor generallardan maliyyələşəcək.**

Yəni paket siyasəti olan yerdə hansısa şəffaflıqdan danışmaq belə sadəlövhlükdür. Çünki Ordu kiçikdir. Kimin hansı məqsədə qulluq etdiyini hər kəs yaxşı bilir. Uzun sözün qısası, çox da ümidlənməyin. Görək hansı biri Orduda tüğyan edən rüşvətxorluqdan, bazardan və ya neqativ hallardan danışacaq. Şəxsən indiyə qədər mən bunun şahidi olmadım!!!” Statusdan aydın olur ki, ortada qərəzli mövqe var. Hərbi ekspertlərin, jurnalistlərin birlik halına gəlməsi, əslində normal qarşılanmalıdır. Ordunun qüdrəti ilə bərabər, təbii neqativləri də söyləməlidir.

**Yeni yaradılan təşkilat barədə ”Şərq”ə danışan hərbi jurnalist Səxavət Məmmədov bildirib ki, hərbi ekspert və hərb sahəsində işləyən jurnalistlərin bir araya gəlməsi, birlik formasında fəaliyyət göstərməsi ola bilsin ki, kənardan fərqli görünür:** ”Təşəbbüs hərbi ekspertlər Elxan Şıxaliyev və Tərlan Eyvazovdan gəlib. Təklif ediblər və razılaşmışam. Bəziləri elə bilir ki, bu, konkret olaraq münasibəti olan adamların bir yerə yığışmasıdır. Yaxud da kimlərsə bir yerə toplaşıb, pul



qazanmaq niyyətindədir. Qətiyyən belə deyil. Hər hansı qurumla yaxınlıq məsələsi düşünülmür. Ümumiyyətlə, hərbi sahədə çalışan, mətbuat qarşısına çıxan, hər kəs ora dəvət olunub. Gələ bilməyənlərin növbəti iclasda iştirak edəcəklərini bildiriblər. Təşkilatın əsas məqsədi mövcud problemlərin qabardılması, onlara çıxış yolları göstərməkdir. Həmçinin doğru informasiya çatdırmaq və birlik olub, ortaya iş qoymaqdır. Bütün ixtisaslar üzrə hərbi həkimlərdən tutmuş, pilotlara qədər hər kəs cəlb olunacaq. Göz önünə qoyulacaq araşdırmalar, təhlillər, analizlər bütün sahələri əhatə edəcək. Hətta lazım olsa, iqtisadçılar da, təhlükəsizlik üzrə ekspertlər də dəvət olunacaq. Elə materiallar, informasiyalar olur ki, bir nəfərin, vahid sahə üzrə işlənməsi o qədər də tutarlı alınmır. Onlar təşkilat olaraq 5-10 şəxsin süzgəcindən keçəcək”.

**S.Məmmədov onu da əlavə edib ki, Azərbaycanda bundan əvvəlki illərdə təşkilatlar olub:**

”NATO-dan, digər təşkilatlardan Azərbaycana gələnlər müstəqil qurumlarla, təşkilatlarla görüşmək istəyirlər. Amma faktiki olaraq Azərbaycanda belə bir fəaliyyət sahəsi yoxdur. Biz də düşündük ki, olmayan təşkilatı yaradaq və bunun üçün aktivlik göstərək. Mətbuat orqanı olaraq məsələn, ”Şərq” qəzeti quruma müraciət edir. Bildirilir ki, hərb sahəsində hansısa istiqamətdə bir araşdırma verilsin. Təbii ki, təhlili bir nəfərin etməsi mümkün deyil. Bu baxımdan təşkilatlanmaq zəruri hesab edilib”.

**Hərbi ekspertin fikrincə, öncədən proqnoz vermək doğru deyil:** ”Ən azından fəaliyyətə başlanılsın. Ondan sonra əgər işimizlə bağlı hər hansı bir problem, neqativlər varsa, fikirlər bildirilsin. Hələ ki yaranmayıb. Adı belə məlum olmayan, əsasnaməsi təsdiq edilməyən təşkilatla bağlı mənfi düşüncədə olmaq gülüncdür. Hətta birləşmənin içərisində elə şəxslər var ki, həyatı boyu heç bir qurumla əməkdaşlıq etməyiblər”.

Müsahibimiz diqqətə çatdırıb ki, bu təşkilata bir neçə general da qoşulacaq: ”Hətta xaricdə olan bəzi ekspertlərimiz də qoşulmaq istəyirlər. Ümumiyyətlə, hərbi ekspert, jurnalist kateqoriyalarına bölünmədən təşkilatımız hər kəsə açıqdır. Yaxın günlərdə yenidən toplantı olacaq. Adına və əsasnaməsinə aydınlıq gətiriləcək”.

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

Mələhət Rzayeva



# Təbiəti ilk növbədə özümüz qorumalıyıq

## İşğaldan azad edilmiş ərazilərimizdə “Ağıllı şəhər”, “Ağıllı kənd” layihələrinin icrası alqışalayiqdir

**Ekoloji problemlər dünyamızı fəlakətə sürükləyir. İqlim dəyişiklikləri, qlobal istiləşmə, qasırğa, sel, daşqınlar, torpaq sürüşmələri... bəşəriyyətə təhlükə yaradan, insan ölümünə səbəb olan təbii fəlakətlərin, əslində, təbii deyil, texnogen olduğu artıq sübuta yetib. Müsbət olan budur ki, təbiətə savaş açan insan bu savaşı elə özü bitirmək istəyir və bunun üçün yollar, vasitələr axtarır. Alternativ enerji mənbələrindən istifadə, ”Ağıllı kənd”, ”Ağıllı şəhər” layihələri də bunlardan biridir.**

Dünyada artıq belə nümunələr yüzlərlədir. Azərbaycan da təbiətimizi qorumaq, gələcək nəsillərə sağlam təhvil vermək, ümumilikdə bəşəriyyətin xilasına xidmət etmək üçün bütün mümkün imkanlardan istifadə edir. Qarabağın azadlığı uğrunda qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə ”Ağıllı kənd”, ”Ağıllı şəhər” layihələrinin icrasına başlanılıb. Bununla Azərbaycan dövləti işğal faktoru nəticəsində yurd-yuvasından didərgin düşmüş soydaşlarımızın həsrət qaldığı torpaqlara qayıdışını təmin etməklə yanaşı, həm də regionda ekoloji təmizlik yaratmağı hədəfləyir. İşğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq, bərpa işləri ”Yaşıl enerji konsepsiyası” əsasında aparılır. Bu barədə Bakıda keçirilən Azərbaycan-Türkiyə 1-ci Enerji Forumunda danışılıb. Forumda çıxış edən energetika naziri Pərviz Şahbazov qeyd edib ki, yenilənəbilir enerjinin ölkə üzrə, təxminən, 27 min meqavatlıq, işğaldan azad edilmiş ərazilərdə 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialı, zəngin daxili su ehtiyatları, həmçinin ümumilikdə 700 MVt-lıq rüzgar və günəş enerji layihələri üzrə planlaşdırılan hərraclar, Laçın-Kəlbəcər zonasında 100 meqavatlıq külək elektrik stansiyasının tikilməsi və ”yaşıl enerji zonası”nın yaradılması ilə bağlı digər planlar Türkiyə investorları üçün geniş üfüqlər açır. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzurun ”yaşıl enerji” zonasına çevrilməsi prosesində türk şirkətləri ilə geniş əməkdaşlığımız cəlbedici olmaqla bərabər, həm də həmrəyliyimizin rəmzi olacaq. ”Türkiyə şirkətlərinin iştirakı qədər yenilənəbilir enerji, enerji səmərəliliyi, energetikada bazar münasibətləri, tənzimləməyə dair Türkiyə təcrübəsi və dəstəyi də bizim üçün önəmlidir. Çünki hər zaman və bütün proseslərdə olduğu kimi, ”Təmiz enerjili” gələcəyə doğru yolumuzda da Türkiyəni ən böyük müttəfiq görürük. Bunun ilk örnəklərindən biri İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinə Azərbaycanın ev sahibliyi etməsi üçün Türkiyənin öz namizədliyini geri çəkməklə nümayiş etdirdiyi dəstəkdir”, deyə nazir qeyd edib. Türkiyə ilə əməkdaşlıqda Azərbaycan ”yaşıl enerji”yə keçid hədəflərinə daha tez çata bilər. Nazir qeyd edib ki, Qarabağ günəş, külək və digər növ enerjilərin hazırlanması üçün nəhəng potensiala malikdir: ”Türkiyə şirkətləri üçün Qarabağda böyük imkanlar yaradılıb. Azad edilmiş ərazilərdə reallaşdırılması planlaşdırılan ”Yaşıl enerji konsepsiyası” çərçivəsində Azərbaycan həm dövlət, həm də özəl sektorda investorlar üçün əlverişli mühit yaradacaq. Biz Türkiyə ilə əməkdaşlıqda ”yaşıl” enerjiyə keçid, eləcə də iqlim dəyişikliyi ilə mübarizədə hədəflərə daha tez çata bilərik”. Türkiyənin Energetika və təbii sərvətlər naziri Fatih Dönməz də qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə tətbiq edilməsi planlaşdırılan ”Yaşıl enerji konsepsiyası” çərçivəsində bundan sonra da həm dövlət, həm də özəl sektor Azərbaycanın yanında olacaq: ”Bu yolla həm regionda davamlı sülhün bərqərar olması, həm də işğaldan azad edilmiş rayonların yenidən qurulması üçün Azərbaycanla koordinasiyalı fəaliyyət göstərməyə davam edəcəyik. İnanıram ki, karbohidrogen sənayesi sahəsində birgə həyata keçirdiyimiz çoxsaylı uğurlu əməkdaşlıq təcrübələrinin bərpa olunan enerji sahəsinə transferi əlaqələrimizə yeni təkan verəcək”.

**İqtisadçı Fuad İbrahimov ”Şərq”ə açıqlamasında hazırda dünyada alternativ enerji mənbələri - yenilənəbilir enerji resurslarından istifadəyə böyük ehtiyac** var:

***“Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi prosesində türk şirkətləri ilə geniş əməkdaşlığımız cəlbedici olmaqla bərabər, həm də həmrəyliyimizin rəmzi olacaq”***

- Dünya artıq anlayıb ki, enerji rerurslarının israf olunması həm iqtisadiyyata ziyandır, ən böyük ziyan isə təbiətə, ekologiyaya dəyir. Arıtq bütün dünyada məişət tullantılarından səmərəli istifadə, bioenerji layihələri icra olunmaqdadır. İşğaldan azad edilmiş ərazilərimizdə ”Ağıllı şəhər”, ”Ağıllı kənd” layihələrinin icrası birmənalı alqışalayiqdir. Təbiəti ilk növbədə özümüz qorumalıyıq ki, təbiət də bizə qarşılıq versin. Kənd yerlərində, aktual problemlərdən biri alternativ enerji mənbələridir. Buraya günəş, bioenerji külək və sair enerji mənbələri aiddir. Məsələn, Almaniyada kəndə qaz verməkdənsə, bioenerjidən və günəş enerjisindən istifadə edirlər. Finlandiyanın Laplandiya əyalətində isə günəş enerjisindən istifadə edilir, küçələrin işıqlandırılması, ATM-lərin işi və sair cihazlar bu enerji ilə işləyir. Bunlar ekologiyanın təmizlənməsi, havanın saflaşdırılması üçün atılan addımlardır. Müsbət haldır ki, Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərdə külək, günəş enerjisi, həmçinin dağ çaylarından alınacaq enerji proqnozlaşdırılıb. Azərbaycan alternativ enerji mənbələrinə görə zəngin ölkədir. Təkcə elə dağ çayları kifayət qədər elektrik enerjisi hasil etməyə imkan verir. Nəzərə almalıyıq ki, yalnız işğaldan azad edilmiş ərazilərdə deyil, ümumiyyətlə, bütün ölkə ərazisində axan bol sulu, gur çaylarımız var. Görürük ki, əksər ölkələr alternativ enerji mənbələrinin işlənməsinə investisiya cəlbində maraqlıdırlar, təkliflər irəli sürürlər. Bu, ölkəmizin təkcə iqtisadi inkişafına müsbət təsir göstərəcək amil deyil, həm də ekoloji təmizliyə nail olmağımızı şərtləndirəcək. Söhbət təkcə işğaldan azad edilmiş ərazilərdən getmir. Həmin ərazilərə yaxın coğrafiyada yerləşmiş bölgələr də bu layihələrdən faydalanacaq. Yaşıl enerji zonaları, yaşıl enerji konsepsiyalarının tətbiqi ümumilikdə ekoloji problemlərin, iqlim təlatümlərinin qarşısını ala bilər.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# İrəvan öhdəlikləri yerinə yetirməyə məcburdur

## “Çünki zaman uzandıqca Ermənistan tərəfi daha ciddi problemlərlə üz-üzə qalacaq”

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov və ermənistanlı həmkarı Ararat Mirzoyan arasında telefon danışığı baş tutub.**

Söhbət zamanı tərəflər Azərbaycanla demarkasiya-delimitasiya mexanizmlərinin hazırlanmasının əhəmiyyətini vurğulayıblar. Eyni zamanda Azərbaycan-Ermənistan sərhədində təhlükəsizlik və sabitlik səviyyəsinin yüksəldilməsinə yönəlmiş tədbirlərin vacibliyinə diqqət çəkiblər.

**Danışıqların pərdəarxası məqamlarını ”Şərq”ə şərh edən Ankara İqtisadiyyat və Texnologiyalar Universitetinin professoru, siyasi şərhçi Toğrul İsmayıl 44 günlük savaşdan sonra tərəflər arasında imzalanan bəyanata diqqət çəkib:** ”Burdakı şərtlərdən biri də tərəflər arasındakı sərhədlərin müəyyənləşdirilməsi idi. Bu, uzun prosesdir. Hətta aralarında problem olmayan dövlətlərin belə bəzən sərhədlərinin müəyyənləşdirilməsi bəlli bir zaman alır. Buna Rusiya-Azərbaycan sərhədini misal göstərə bilərik. Əvvəl Putinin vasitəçiliyi ilə Soçidə, daha sonra Avropa İttifaqının vasitəçiliyi ilə Brüsseldə görüşən tərəflər bölgədəki münasibətlərin tənzimlənməsinə razılıq veriblər. Azərbaycan onsuz da öz üzərinə düşən öhdəlikləri yerinə yetirirdi. Təbii ki, Ermənistan da bunu etmək məcburiyyətindədir”.

*Professor hesab edir ki, hazırda Ermənistanın yumşalmasında əsas səbəb onun başqa yolunun olmamasıdır:* ”Ermənistan, xüsusilə Paşinyan hökuməti artıq reallığı qəbul etmək məcburiyyətində qalıb. Buna görə də Azərbaycanla münasibətləri tezliklə yaxşılaşdırmaq istəyir. Çünki zaman uzandıqca Ermənistan tərəfi daha ciddi problemlərlə üz-üzə qalacaq. Bunu da onun himayədarları çox yaxşı bilirlər”.

T.İsmayıl Ermənistanın bu kimi məsələləri öz tərəfdaşları ilə birgə müzakirə etməsindən sonra prosesə daha ciddi yanaşdığını diqqətə çatdırıb.

**Günəş Mərd**

# Gürcüstan ordusunu hərtərəfli gücləndirir

## Qonşumuz Azərbaycanın hərbi təcrübəsini öyrənməyə can atır

**Gürcüstanın Müdafiə naziri Cuanşer Burçuladzenin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 21-dən 23-dək ölkəmizdə səfərdə olub. Səfər çərçivəsində bir sıra mühüm görüşlər keçirilib. Azərbaycan Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında keçirilən görüşdə 2022-ci il üçün ikitərəfli əməkdaşlıq planı imzalanıb.**



Görüşdə həmçinin, tərəflər hərbi əməkdaşlığın inkişaf perspektivləri, birgə hərbi təlimlərin keçirilməsi, işçi görüşlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də fikir mübadiləsi aparıblar. General-polkovnik Zakir Həsənov birgə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib. Bunun ölkələrimizin inkişafı ilə yanaşı bütün regionda təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynadığını xüsusi vurğulayıb. Birgə təlimlərin əhəmiyyətini qeyd edən nazir Gürcüstanda keçirilən ”Eternity-2021” kompüter dəstəkli üçtərəfli birgə komanda-qərargah təliminin ölkələrimiz arasında dostluğun və sarsılmaz əməkdaşlığın bariz nümunəsi olduğunu diqqətə çatdırıb. Müdafiə naziri azad edilmiş ərazilərdə görülən işlər barədə də qonağa məlumat verib. C.Burçuladze də öz növbəsində əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin önəmindən danışıb. Görüşdə Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlıqların inkişafının zəruriliyi vurğulanıb.

**Qonşu Gürcüstanla hərbi əməkdaşlığımız barədə ”Şərq”ə danışan ehtiyatda olan polkovnik Üzeyir Cəfərov deyib ki, Azərbaycanla Gürcüstanın hərbi sahədə əlaqələrinin dərin kökləri var. Hərbi ekspert bildirib ki, istənilən dövr və şəraitdə Gürcüstanla sıx əməkdaşlıq etmişik:** ”Gürcüstanın Müdafiə naziri Cuanşer Burçuladze Azərbaycana ilk səfərini edib. Səfərin məqsədi o idi ki, tərəflər 2022-ci il üçün həm ikitərəfli, həm də Türkiyənin iştirakı ilə üçtərəfli hərbi əməkdaşlıq sazişlərini imzalasınlar. Türkiyə Gürcüstan Silahlı Qüvvələrinin NATO-ya daxil olması prosesində birbaşa cavabdehlik daşıyan ölkədir. Bu məsələdə patronajlığı qardaş Türkiyə həyata keçirir. Gürcüstan öz ordusunu qardaş Türkiyə sayəsində xeyli təkmilləşdirib. Burçuladzenin ölkəmizə gəlişi ilk növbədə tanışlıq mahiyyəti daşıyırdı. Səfər çərçivəsində qarşıdakı dönəmdə birgə fəaliyyət planı da təsdiq olundu. Müdafiə nazirlərinin görüşündə hər iki ölkədə fəaliyyət göstərən hərbi attaşelər də iştirak etdilər”.

**Ü.Cəfərov vurğulayıb ki, Gürcüstanla ayrı-ayrı sahələr üzrə birgə əməkdaşlıq planlaşdırılır. Burada söhbət sadəcə müdafiə nazirliklərindən getmir:** ”Gürcüstan qonşu dövlətdir. O baxımdan ikili əlaqələrdə Dövlət Sərhəd Xidməti, Xarici və Daxili işlər nazirliklərinin birgə əməkdaşlığı zəruridir. 2022-ci il üçün ikitərəfli sazişin detalları ayrı-ayrı qurumlar tərəfindən işləniləcək. Gürcüstan bizim üçün vacib ölkədir. Hər zaman beynəlxalq müstəvidə bir-birimizə dəstək vermişik. Tbilisi üçün Bakı da vazkeçilməz tərəfdaşdır. Azərbaycan öz torpaqlarını işğaldan azad edərək, ərazi bütövlüyünü təmin edib. Gürcüstanın iki mühüm bölgəsi hələ də işğal altıdadır. Şübhə yox ki, həmin ərazilər gec-tez Gürcüstanın yurisdiksiyasına qayıdacaq. Bunun üçün qonşu ölkədə müəyyən işlər görülür. Ən əsası isə ordu gücləndirilir. Çox güman, Azərbaycana səfər çərçivəsində ordu ilə bağlı önəmli nüanslar dərindən öyrənilib”.

**İsmayıl Qocayev**

# Artımlar inflyasiyanı kompensasiya etməyəcək



**”Builki inflyasiya səviyyəsi gələn il gözlənilən inflyasiyanı kompensasiya etmək iqtidarında olmayacaq”.**

Bu barədə ”Şərq”ə iqtisadçı-ekspert Azər Mehdiyev bildirib. O qeyd edib ki, hökumətin həyata keçirdiyi islahatlar nəticəsində əmək haqları, sosial müavinətlər 15-20 faiz artırılıb: ”Görülmüş tədbirlər nəticəsində inflyasiya kompensasiya edilir. İnflyasiya ötən illə müqayisədə 6 faizin üzərində, ilin əvvəli ilə müqayisədə isə 10 faizin üzərində olub. Nəzərə almalıyıq ki, əhalinin təqribən 70 faizinin gəliri orta aylıq əməkhaqqından aşağıdır.

Vətəndaşların istifadə etdikləri əsas məhsulların qiymət artımı 50 faizin üzərindədir. Bu gedişlə alıcılıq qabiliyyəti aşağı düşəcək”.

**Xanlar Əlibəy**

# TƏBİB: Tibbi xidmətlər üçün regionlardan şəhərə axın azalıb




**”İcbari tibbi sığorta artıq bütün ölkəni əhatə edir”.**

Bunu dünən Milli Məclisin Səhiyyə komitəsinin təşkilatçılığı ilə keçirilən ölkədə icbari tibbi sığorta ilə bağlı görülən işlər, hazırki vəziyyət və gələcək planlar barədə dinləmədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyəti sədrinin vəzifələrini icra edən Vüqar Qurbanov bildirib.

V. Qurbanov deyib ki,layihənin əsas məqsədi tibb müəssisələrində sərbəstliyi təmin etməkdir: ”Bu istiqamətdə müvafiq tədbirlər təşkil edilib. İcbari tibbi sığortanın tətbiqi sayəsində tibbi xidmətlər üçün regionlardan şəhərə əhalinin axını azalıb. Bu, bölgələrdə fəaliyyət göstərən tibb müəssisələrində olan şəraitin, göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırıldığını göstərir. İcbari tibbi sığorta üzrə göstərilən xidmətlərin növlərinin və keyfiyyətinin artırılması əhali üçün çox faydalı olacaq”.





# Satan çox, alan yox...

## Yeni İl yarmarkasında qiymətlər elə də baha deyil

**Dekabrın 2-dən etibarən paytaxt Bakıda Yeni İl və Dünya Azərbaycanlılarının Həmrəylik Günü günü münasibətilə bayram yarmarkaları təşkil olunur. Bu bazarlar əsasən metro stansiyalarının yaxınlığında fəaliyyət göstərir.**

Çadırlarda Yeni İl hədiyyələri və meyvə-tərəvəz məhsulları satışa çıxarılıb.

Yarmarkaların təşkil edilməsində əsas məqsəd bazar qiymətlərinə nisbətən ucuz məhsullar təqdim etməkdir. Qeyd edək ki, yarmarka çadırları dekabrın 31-nə kimi fəaliyyət göstərəcək.

"Şərq"in əməkdaşları metronun "Koroğlu" stansiyası yaxınlığında açılan yarmarkadakı qiymətlərlə tanış olublar.

Burada şam ağaclarının qiymətləri uzunluğuna görə dəyişir. Qiymətlər 5 manatdan 90 manata qədərdir.

Yeni İl bəzəklərindən olan zərlərin qiyməti 40



qəpikdən 2 manat 50 qəpiyə qədər təklif olunur.

Rəngli işıqların qiyməti isə 1 manat 30 qəpiklə 10 manat arasında dəyişir.

Şaxta babanın qiyməti 3 manat 50 qəpikdən 25 manata qədərdir.

Şam ağacının üzərini bəzəmək üçün satılan oyuncaqlar böyüklüyünə və sayına görə fərqli qiymətə satılır.

**Yarmarkada satıcı işləyən Rahim Baxışovun bildirdiyinə görə, bu il bazarda insanların alıcılıq qabiliyyəti zəifləyib:** "Öncə qeyd edim ki, yarmarkalar Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təşkil edilir, bütün metroların çıxışlarında var.

Bu il ümumi bazarda alıcı qüvvəsi keçən illərə nisbətən azdır. Gələn alıcılar da əsasən oyuncaqlara maraq göstərirlər.

Qiymətlərə gəlincə isə ötənilki qiymətlərlə builki qiymətlər, demək olar, eynidir. Yalnız təzə gələn mallarda qiymət cüzi olaraq bahadır.

Bu malların da qiymətindəki dəyişiklik əldə etdiyimiz satış məntəqələrindən asılıdır".

**Xanlar Əlibəy, Günəş Mərd**

15 fevral 2022-ci il tarixdə saat 10:00-da "Bakı Körpü-Tunel" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın keçirilmə ünvanı:

Bakı şəhəri, Nizami rayonu, Keşlə ŞTQ, Energetika, ev 3

Gündəlikdəki məsələlər:

1. İdarə Heyətinin sədrinin seçilməsi barədə;
2. "Bakı Körpü-Tunel" ASC-nin maliyyə balansının təsdiq edilməsi;
3. Cəmiyyətin Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi;
4. Cəmiyyətin seçkili orqanlarının yenidən təşkili:
- Müşahidə Şurasının tərkibinin seçilməsi barədə;
- İdarə Heyətinin tərkibinin seçilməsi barədə;
- Maliyyə-təftiş Komissiyası - Müfəttişin seçilməsi barədə;
5. "XalqBank" ASC ilə əqdlərin bağlanması barədə.

**Elan**

Milli Aviasiya Akademiyası tərəfindən Qurbanlı Sevinc Urfan qızının adına verilmiş tələbə kartı itdiyi üçün etibarsız sayılır.

Abbasov Füzuli Ələbbas oğluna məxsus 020777 saylı Qarabağ veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tovuz Rayon Şöbəsi (keçmiş Tovuz rayon hərbi komissarlığı) tərəfindən Qasımov Şahin Məsim oğlunun adına verilmiş 064463 nömrəli Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Əməkdar artist Bakıdan köçüb



**Əməkdar artist Bəsti Bəkirova Bakıdan köçüb.**

Müğənni uzun müddətdir rayonda yaşadığını bildirib. Bu haqda Bəkirova "7 canlı" proqramında bəhs edib:

"Nabranda qalıram. Təmiz hava və su... Ona görə də mən toylara getmirəm. Çox vaxt gizlənirəm, görünmək istəmirəm. İstəmirəm rayonda insanlar məni tanısın. Pandemiyada isə heç evdən çıxmadım".

*Qeyd edək ki, B.Bəkirova bir müddət əvvəl Nabranda istirahət mərkəzi aldığını açıqlamışdı.*

## Aygün Kazımova bu dəfə çəkiliş üçün meşəyə gedib



**Xalq artisti Aygün Kazımova yeni fotosessiya etdirib.**

Lent.az xəbər verir ki, müğənni bu dəfə çəkiliş üçün meşəyə gedib. Meşədə bir obrazı canlandıran Aygün çəkdirdiyi şəkilləri "Instagram" səhifəsində paylaşıb.

## Bakıya intensiv qar yağacaq



**Dekabrın 24-də gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 2° şaxtadan 2°-dək isti, gündüz 3-6° isti olacaq. Bakıda gecə 1° şaxtadan 1°-dək isti, gündüz 3-5° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək. Nisbi rütubət 80-90 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı, duman olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4° şaxtadan 1°-dək isti, gündüz 3-7° isti, dağlarda gecə 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 15-20° şaxta, gündüz 2-7° şaxta olacaq. Dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

## Merve iş adamı ilə sevgilidir

Aktrisa Erkan Şenlə qol-qola görüntülənib

**Türk mediasının "eşq həyatında üzü gülməyən aktrisa" kimi təqdim etdiyi Merve Boluğurun yeni münasibət yaşadığı ortaya çıxıb.**



Axşam.az xəbər verir ki, aktrisa ötən gün iş adamı Erkan Şenlə qol-qola görüntülənib. Cütlük münasibətləri ilə bağlı suallara "Birbirimizi tanıyırıq, gözəl dialoqumuz var. Hazırda çox xoşbəxtik" şəklində cavab verib.

*Qeyd edək ki, Merve daha əvvəl müğənni Murat Dalkılıçla evli olub. Cütlük boşandıqdan sonra aktrisa dərin depresiyaya düşmüşdü.*



## Duz və şəkər olmaz

104 yaşlı saç ustası iki qidadan imtina edib

**Tennesi ştatının Memfis şəhərindən olan 104 yaşlı amerikalı uzunömürlülüyünün sirrini bölüşüb.**

Ernestina Spense uzunömürlülüyünə səbəb kimi yeməyə olan sevgisini göstərib.

"Mənim əla iştaham var, doyunca yeməyi sevirəm. Qarğıdalı çörəyi, qırmızı kartof və turpu xoşlayıram. İstənilən yeməyi yesəm də, duz və şəkərdən imtina etmişəm", - deyə o əlavə edib.

*Qeyd edək ki, Spense 1917-ci ildə Memfisdə anadan olub və bütün həyatını doğma şəhərində keçirib. Qadın uzun illər bərbər işləyib; bir neçə nəsil şəhər əhalisi onun müştərisi olub. Buna görə də şəhərin ən tanınmış bərbərlərindən biri sayılıb.*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Nizaminin əsərləri Azercell-in rəqəmsal təqdimatında!

## Lider operator dahi şair və mütəfəkkirin əsərlərini "Audiokitab" formatında tərtib etdi




**Azərbaycanın orta əsr ədəbiyyatının ən görkəmli siması olan Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə Prezident cənab İlham Əliyevin sərəncamına əsasən 2021-ci il "Nizami Gəncəvi İli" elan edilib. Dekabrın 23-ü Bakı Kitab Mərkəzində (Baku Book Center) "Azercell Telekom"-un təşəbbüsü ilə Nizaminin zəngin bədii irsinə həsr edilmiş "Audiokitab" layihəsinin təqdimatı keçirilib.**

Layihə haqqında iştirakçılara məlumat verən Azercell-in Media ilə Əlaqələr şöbəsinin direktoru Nigar Şıxlinskaya qeyd etdi: "Azərbaycanlı müəlliflərin əsərlərini rəqəmsal formata keçirməklə şirkət xüsusi olaraq gənclər arasında mütaliə mədəniyyətini genişləndirmək, həm də müasir oxuculara dünyanın bütün nöqtələrində rəqəmsal cihazlar vasitəsilə xalqımızın mədəni irsini daha əlçatan və rahat etməyi qarşısına məqsəd qoyur. Məhz bu niyyətlə elektron kitabxananın inkişafında Azercell-in növbəti təşəbbüsü beynəlxalq elektron platforma vasitəsilə Nizami əsərlərinin audiokitab formatında dünyanın beş dilində təqdim edilməsi oldu."

Qeyd edək ki, layihə çərçivəsində "Azercell"-in dəstəyilə Nizami Gəncəvinin 100-dən çox seçilmiş fəlsəfi və lirik məzmunlu, müxtəlif ölçülü əsərlərindən parçalar audiokitab formatında tərtib edilib. Şeirlər Azərbaycan, rus, ingilis, fransız və türk dillərində qədim simli musiqi alətlərinin müşayiəti altında səsləndirilib. Orijinal fon musiqiləri ilə təqdim olunan audio materiallar Azercell-in eksklüziv şəkildə təqdim etdiyi beynəlxalq "Bookmate" əlavəsinə yüklənilib.

Layihə çərçivəsində Nizami Gəncəvinin iki əsərinin: "Kərpickəsən kişinin dastanı" və "Adil Nuşirəvan ilə vəzirin hekayəti"-nə komiks janrında çəkilmiş şəkillərindən fotoalbom hazırlanıb. Tədbirdə yeni formatda hazırlanmış "Kərpickəsən kişinin dastanı" komiksi də iştirakçılara təqdim olunub.

Təqdimat mərasimində Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyat Muzeyinin direktoru, millət vəkili Rafael Hüseynov, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli və "Colorit" Yaradıcılıq Emalatxanasının rəhbəri Teymur Nəcəfzadə də çıxış etdilər.

Təqdimatın bədii hissəsində müəllif və qiraətçilər Xəzər Süleymanlı və Səməd Hətəmov Gəncəvinin ölməz əsərlərindən bəzi hissələri ifa ediblər. Daha sonra vokal ifaçısı Tomrisin çıxışı iştirakçılar tərəfindən alqışlarla qarşılanıb. Mərasimdə Bakı Xoreoqrafiya Akademiyasının tələbələrinin ifasında "Leyli və Məcnun" baletindən səhnə də nümayiş etdirilib.

*Xatırladaq ki, Azercell tərəfindən eksklüziv şəkildə təqdim olunan "Bookmate" tətbiqi məkandan və istifadə edilən cihazdan asılı olmayaraq, hətta, oflayn rejimdə belə müxtəlif janrlarda 4 milyondan çox elektron və audiokitabı özündə cəmləşdirən zəngin elektron kitabxanadır. Bundan əvvəl milli rəqəmsal məzmunun həm ana dilində, həm də dünyanın müxtəlif dillərində yayımlanması məqsədilə Azercell şirkəti İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə şairin seçmə qəzəllərini, "Koroğlu" dastanının 10 qolunu, Qarabağın tarixinə aid müxtəlif oçerk və elmi əsərləri, eləcə də müxtəlif klassik və müasir müəlliflərin əsərlərini audiokitab formatında hazırlayaraq beynəlxalq elektron kitabxanaya yükləmişdi.*


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2738

## Harri və Meqan Markl qızlarını göstərdi

Lili kraliçanın 11-ci nəvəsidir



**İngiltərə şahzadəsi Harri və həyat yoldaşı Meqan Markl körpə qızlarının ilk fotosunu paylaşıb.**

Valideynlərinin Lilibet - Lili adını verdiyi körpə 2021-ci il iyunun 4-də ABŞ-da, Santa-Barbaradakı Santa Barbara Cottage Xəstəxanasında dünyaya gəlib. Məlumdur ki, şahzadə Harri həyat yoldaşı ilə İngiltərə Kral sarayından ayrılaraq ABŞ-da məskunlaşmağı və müstəqil həyat sürməyi üstün tutmuşdular. Buna görə kraliça II Yelizavetanın nəvəsindən incidiyi də bəlli idi. Lakin Harri və Meqan körpələrinin adını məhz kraliçanın adına uyğunlaşdırıblar; Lilibet. Körpənin bütöv adı isə Lilibet Diana Mountbatten-Windsordur. İlk dəfədir ki, Lilinin fotosu 2 yaşlı qardaşı Archie ilə birgə yayılır. Foto kral ailəsinin Kaliforniyadakı evində çəkilib. Harri və Meqan fotoya bu sözləri əlavə edib: ”Bu il qızımız Lilibetin dünyaya gəlişini sevinclə qarşıladıq. Arçinin sayəsində ana və ata, Lilinin sayəsində isə ailə olduq”. Lili kraliça II Yelizavetanın 11-ci nəvəsidir.

**Məlahət**

## Rusiya elektrikli avtomobili təqdim etdi

Konserndən bildirilib ki, avtomobil qazla işləyəcək



**Rusiyanın hava hücumundan müdafiə sistemlərinin əsas istehsalçısı ”Almaz-Antey” Səhmdar Cəmiyyəti təkmilləşmiş elektrikli avtomobilin ilk görüntülərini yayıb.**

Bu barədə Rusiya KİV-ləri məlumat verir. Bildirilir ki, konsernin məlumatında elektrikli avtomobilin bütün göstəriciləri açıqlanır. ”E-NEVA” adı verilən elektrikli avtomobil yüklənmiş bir batareya ilə saatda 463 kilometr məsafə qət edə bilir. Avtomobilin uzunluğu 4,5 metrdir. 2,7 saniyədə 60 kilometr sürət alaraq saatda maksimum 197 kilometr sürətlə hərəkət edir. Avtomobildə rəqəmsal məlumat paneli quraşdırılıb. Ön pəncərədə proyeksiya ekranı və 15 ”inç” ölçüdə multimedia sistemli sensorlu ekran olan avtomobilin yanacaq tutumu 610 litrdir. Konserndən bildirilib ki, elektrikli avtomobil qazla işləyəcək və ya hidrogen motorlu hibrid versiyaları da olacaq.

## “Qarşıda bir neçə ay çətin olacaq"

**Bill Qeyts koronanın 2022-ci ildə bitəcəyini deyir**



**Dünyanın ən zəngin insanlarından biri olan və koronavirusla bağlı açıqlamaları ilə gündəmi dəyişən Bill Qeyts ”Omicron” variantından danışıb.**

**”Şərq” xəbər verir ki, o, bu barədə öz ”Twitter” hesabında məlumat verib.**

**B.Qeyts qarşıdakı bir neçə ayın çox çətin olacağını və buna görə öz tətil planlarını ləğv etdiyini bildirib.**

**Bill Qeyts düzgün addımlar atılarsa, koronavirus epidemiyasının 2022-ci ildə sona çatacağını bildirib: ”Tam da hər şeyin normallaşdığını düşündüyümüz zamanda epidemiyanın ən pis hissəsinə daxil olmuşuq. Maska taxıb, peyvənd olunarıqsa, pandemiya 2022-ci ildə bitə bilər”. Məşhur xeyriyyəçi bu variantın tezliklə dünyanın bütün ölkələrində aşkarlana biləcəyini söyləyib: ”Bu variant haqqında daha çox məlumat əldə edənə qədər biz ciddi tədbirlər görməliyik. ”Delta” ştammı yoluxucu olduğu üçün ən pis xəstəlik ola bilər. Bir-birimizin qeydinə qalmalıyıq. Maska taxmalı, izdihamlı mühitlərdə, qapalı yerlərdə olmamalıyıq. Peyvənd olunmalıyıq”.**

Çimnaz Şahlar

## İlk SMS hərraca çıxarılıb

**Rəqəmsal nüsxəni naməlum kanadalı 107 min avroya alıb**



**Dünya tarixində ilk SMS 1992-ci ildə ”Vodafone”nin direktoru Riçard Jarvisə Orbitel telefonu ilə göndərilən mətn Fransadakı ”Aguttes” hərrac evində NFT formatında yəni ticarət üçün istifadəsiz sikkə şəklində hərraca çıxarılıb.**

**”Şərq” ”HaberTürk”ə istinadən xəbər verir ki, tarixdə ilk mətn mesajını ötürən orijinal rabitə protokolunun yeganə rəqəmsal nüsxəsi texnologiya sənayesində çalışan naməlum kanadalı tərəfindən 107 min avroya alınıb.**

**Gəlir ”Vodafone” tərəfindən Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığına bağışlanacaq.**

**NFT unikal rəqəmsal əşyaların alınmasına və ya satılmasına imkan verir və blokçeyndən istifadə edərək onların sahibini izləməyə imkan verir.**

**NFT texniki cəhətdən rəqəmsal hər şeyi, o cümlədən illüstrasiyalar, animasiya edilmiş GIF-lər, mahnılar və ya video oyunlardan alınan əşyaları əhatə edir. Bir il əvvələ qədər populyar olmayan NFT-lər müasir incəsənət bazarının yeni ”qızıl toyuq”u kimi qəbul edilirdi.**

**Cəmilə**







# "Omicron" çözüldü

Alimlər dəqiq məlumat verdi, fəlakətə yol açmayacaq

**Məlahət Rzayeva**

**”New York Times” qəzetinin xəbərinə görə, Afrika və Avropada alimlərdən ibarət 3 fərqli qrup ”Omicron” variantı ilə bağlı ilk məlumatları açıqlayıb. ”Şərq” ”Milliyet.com”a istinadən bildirir ki, koronavirusun hazırkı variantı ilə bağlı Güney Afrika, İngiltərə və İsveçdə fərqli qruplar halında tədqiqat aparan alimlərin gəldiyi nəticə ümidvericidir.**

Tədqiqatlar nəticəsində məlum olub ki, ”Omicron”un yoluxduruculuğu sürətli olsa da, böyük fəlakətə yol açmayacaq. Araşdırmalar Güney Afrika, İngiltərə və İsveçdə ”Omicron” variantına yoluxmuş insanlarla bağlı aparılıb. Məlum olub ki, yoluxma sayı artsa da, ”Omicron” əvvəlki ştamlarla müqayisədə daha az öldürücüdür. ”Omicron”a yoluxmuş insanların xəstəxanaya yatırılma faizi də böyük deyil. Bu ştamma yoluxanlar arasında ağır halda xəstəxanaya gətirilənlər azdır. Atlanta Emori Universitetinin biostatisti Natali Din ”bu variantın hər yerə ulaşa bildiyi və çox yoluxucu olduğu diqqətə alınarsa və qabaqlayıcı tədbirlər görülərsə, pandemiya zəifləyəcək və hər şey daha gözəl olacaq” deyib. Yeni araşdırmaya görə, ”Omicron” variantını ”Delta”ya nisbətən daha az təhlükəli edən onun bioloji özəlliklərə malik olmasıdır. Adları çəkilən ölkələrdə ”Omicron”dan ağırlaşma hallarının az olmasının bir səbəbi həm də peyvəndləmədə yüksək faiz göstəriciləri hesab edilir. Peyvənd olunanların çoxu ciddi xəstəliklərə qarşı qorumaya sahibdir. Yeni araşdırma ümidverici olsa da, alimlər tədbirləri əldən verməməyə çağırır, çünki ”Omicron” əvvəlki variantlara nisbətən daha asan və sürətlə yayılır. Los-Anceles California Universitetinin biostatistik mütəxəssisi Kristina Ramirez də ”təşviş yaratmaq istəmirəm, amma tədbirləri əldən verməməliyik”, söyləyib.



## Uşaqlar arasında yayılan soyuqdəymə deyil, virusdur

Xəstəyə mütləq həkim baxmalıdır



**Kliniki Tibbi Mərkəzin tabeliyində olan 2 saylı Klinik Uşaq Xəstəxanasına bu il virus xəstəlikləri ilə bağlı müraciət edənlərin sayı artıb.**

Xəstəxananın pediatr-infeksionisti Rəna Hüseynova bildirib ki, uşaqlar arasında mövsümi xəstəliklər hər il görülsə də, pandemiya başlayandan müraciətlərin sayı daha da artıb:

”Bunun əsas səbəblərindən biri isə uşaqların bağçalara, məktəblərə getməsidir. İndi sağlam uşaq da, xəstə uşaq da məktəbə, bağçaya gedir. Ona görə də xəstəlik çoxalır. Valideynlər xəstə uşaqları bağçaya, məktəbə göndərməməlidirlər”.

**R.Hüseynova qeyd edib ki, hazırda xəstəxanalara ən çox uşaqlar inaq (yuxarı tənəffüs yollarının, xüsusilə qırtlaq (səs tellərinin) və nəfəs borusunun iltihabı) səbəbindən müraciət edir:**

”Uşaqlarda əsasən yüksək hərarət, öskürək, bəzən isə qusma, ishal müşahidə edilir. Çoxu bunu soyuqla əlaqələndirsə də, bu virusdur. Sadəcə bədəndə virus olduğu üçün soyuqdəymə ilə əlaqəli xəstəlik daha da ağırlaşır. Valideynlərin çoxu bu kimi hallarda uşaqları həkimə gətirmədən, evdə müalicə etməyə çalışırlar. Bununla isə uşağın vəziyyəti daha da ağırlaşa bilər. Xəstə uşağa mütləq həkim baxmalıdır. Həkim təyin etmədən uşaqlara antibiotik verilməsi yolverilməzdir”.

**Pediatr-infeksionist xəstələnən uşaqlara qulluq üçün tövsiyələrini də verib:**

”Uşaqların qızdırması olarsa, ilk olaraq onlara ”paracetamol” dərmanı vermək və çoxlu maye içirtmək lazımdır. Ən əsası isə valideynlər vaxt itirmədən yaşadıqları ərazi üzrə poliklinikalara müraciət edib, həkimlərdən məsləhət almalıdırlar. (aztibb.az)

Xəstə uşaqları daha çox geyindirmək də düzgün deyil. Bu tərləməyə və daha çox vəziyyətin ağırlaşmasına gətirib çıxara bilər.

Valideynlərə məsləhətim odur ki, uşaqların əllərini tez-tez yumasına, sıxlıq olan ərazilərdə olmamalarına diqqət etsinlər. Gigiyenik qaydalara və sosial məsafəyə əməl etməklə, uşaqların sağlamlığının qayğısına qalmaq mümkündür”.

## Gələn il vaksinlər burun spreyi formasında olacaq

Bu haqda ÜST nümayəndəsi məlumat verib



**Yeni nəsil vaksinlər yaxın gələcəkdə sprey və tablet formasında olacaq. Bununla yanaşı kovid vaksinləri də ikinci nəslə keçib, ildən ilə modelləşəcək.**

Medicina.az xəbər verir ki, bu barədə ÜST rəsmisi Sumya Svaminatan bildirib.

O qeyd edib ki, nazal və tablet formalı vaksinlərin ənənəvi iynə vaksinlərdən əsas üstünlüyü insanlarda peyvəndə qarşı qorxu hissini azaltmaq olacaq.

Bunun üçün tibb bacılarına ehtiyac olmayacaq, insanlar özləri özlərini peyvənd edib qorunmuş olacaqıar. Buruna fısqırdılan vaksin yerli immun cavab da yaradacaq, virusu orqanizmin girişində qarşılayıb, aşağı tənəffüs yollarına keçməsinin qarşısını alacaq. Hazırda yeni ikinci nəsil 129 kovid vaksini kliniki işləmədədir.

## Putinin qızı yoxa çıxıb?

Britaniya nəşrinin xəbərinə nə Putin, nə də Svetlana münasibət bildirib



**Rusiya Prezidenti Vladimir Putinin 2000-ci illərin əvvəllərində birlikdə yaşadığı Svetlana Krivonoqixdən qızı olduğu deyilən 17 yaşlı Luizanın yoxa çıxdığı iddia olunub. Məlumata görə, S.Krivonoqixin son paylaşımları Putini qəzəbləndirib.**

”Şərq” Britaniyanın ”The Sun” qəzetinə istinadən bildirir ki, Pandora sənədlərinə əsasən 17 yaşlı Luizanın keçmişdə xadimə işləyən, indisə milyonçu olan anası Svetlana 4 milyon dollarlıq Monte-Karlodakı mənzilini paylaşdıqdan sonra yoxa çıxıb. Lakin iddialarla bağlı nə Putin, nə də Krivonoqix açıqlama verib.

*Qeyd edək ki, mətbuatın yazdığına görə, Putinlə Krivonoqix arasında münasibətlər 1990-cı illərin sonlarında başlayıb və onun olimpiyaçı Alina Kabayeva ilə münasibəti başlayanda bitib. Təxminən eyni vaxtda Luiza anadan olub və tezliklə Svetlana Krivonoqix Monte-Karloda lüks bir mənzilə köçüb.*

**Cəmilə Əzim**

## 4-cü dəfə ən nüfuzlu 500 nəfərdən biri oldu



**Dünyaca məşhur ”Variety” jurnalı ”Ən nüfuzlu 500 insan”ın siyahısını açıqlayıb.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, onların arasında Türkiyədən sadəcə ”TV8” telekanalının sahibi Acun Ilıcalı olub.

*Qeyd edək ki, Acun ”Amazon”un sahibi Ceff Bezos, Feysbuk və İnstaqramın sahibi Mark Zukerberq, ”Apple” şirkətinin idarəçisi Tim Kuk kimi iş adamlarının olduğu siyahıda artıq 4-cü dəfədir ki, yer alır.*

## Seda fərqli geyimi ilə diqqət çəkdi



**Məşhur aktrisa Seda Bakan tədbirə getməzdən əvvəl evində çəkdirdiyi fotoları sosial şəbəkədə paylaşıb.**

Milli.Az türk mediasına istinadən xəbər verir ki, dərin yarıqlı libas geyinən aktrisanın iddialı pozaları qısa zamanda minlərlə bəyənmə toplayıb.

Bakan ”Başka Ben” serialında rol aldığı Tuba Büyüküstünlə fotosunu sosial media hesabında yayımlayıb.